

Elektrik enerjisi sahəsi Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.
Heydər Əliyev


# Azərbaycan işıqları

"Azərenerji" ASC-nin orqanı

31 MART 2016-cı il
CÜMƏ AXŞAMI

№ 6 (1132)

www.azerenerji.gov.az


*"Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir ölkədir. Bu ilin ilk ayları bunu bir daha göstərir. Bütün beynəlxalq məsələlərlə bağlı bizim prinsipial mövqeyimiz var və bu mövqeyə heç bir kənar qüvvə təsir edə bilməz. Biz ədalətin, beynəlxalq hüququn, əməkdaşlığın tərəfdarıyıq. Biz heç vaxt imkan verməmişik, vermirik və verməyəcəyik ki, Azərbaycan başqa dövlətlərin maraqlarını təmin etmək üçün qarşıdurma məkanına çevrilsin".*

**İlham ƏLİYEV,
Azərbaycan Respublikasının
Prezidenti**

## RƏSMİ XRONİKA

**17 mart**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məhkum olunmuş bir sıra şəxslərin səhhətini, ailə vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq əfv olunmaları haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam verib.
- Prezident İlham Əliyev 2016-cı ildə Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, respublika Dövlət mükafatı laureatı, xalq artisti Nəsibə Cahangir qızı Zeynalovanın 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Bayram Əsəd oğlu Səfərovun "Şöhrət" ordeni ilə təltif edilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 16 yanvar tarixli 994 nömrəli Sərəncamının 1-ci hissəsinə uyğun olaraq müəyyən edilmiş aylıq vəzifə maaşlarının 2016-cı il aprelin 1-dən orta hesabla 10 faiz artırılması haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli fəal iştirakına görə Mixail Yuryeviç Zabelinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini İsmayıl Məmmədəli oğlu Bağırova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi Orxan Sedyar oğlu Sultanova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam verib.

**18 mart**

- Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Niyazi Müzəffər oğlu Bayramovun 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev səksən altı min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Ramana-Maştağa avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən iki milyon beş yüz min manat ayrılması haqqında sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Akif Bəşir oğlu Rəfiyevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi barədə sərəncam imzalayıb.

**19 mart**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva hər il olduğu kimi, bu il də Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə keçirilən ümumxalq şənliyində iştirak ediblər. Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəliblər. Prezident İlham Əliyev Novruz tonqalını alovlandırıb. Dövlətimizin başçısı bayram şənliyində nitq söyləyib.

**28 mart**

- Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabanda Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatı laureatı, Əməkdar İncəsənət Xadimi, Xalq Yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət edərək xatirəsinə dərin ehtiramlarını bildiriblər.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasında səhiyyə sisteminin təkmilləşdirilməsi və tibb elminin inkişafındakı xidmətlərinə görə Cəmil Əziz oğlu Əliyevin "Şərəf" ordeni ilə təltif edilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev Asəf Daşdəmir oğlu İsgəndərovun Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasında təhsil sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Asəf Daşdəmir oğlu İsgəndərovun "Şöhrət" ordeni ilə təltif edilməsi barədə sərəncam verib.

**29 mart**

- Prezident İlham Əliyev Misir Ərəb Respublikası Müdafiə Nazirliyi Sərhəd Qoşunlarının Komandanı Əhməd İbrahim Məhəmməd İbrahimini qəbul edib.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə İbrahim Əsgər oğlu Mehdiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturununun təkmilləşdirilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev əhali qrupu istehlakçıların suölçən cihazlarla təmin edilməsi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə on iki milyon manat ayrılması haqqında sərəncam verib.
- Prezident İlham Əliyev Sahir Polad oğlu Məmmədxanovun Azərbaycan Respublikası vergilər nazirinin birinci müavini təyin edilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev İlkin Etibar oğlu Vəliyevin Azərbaycan Respublikası vergilər nazirinin müavini təyin edilməsi haqqında sərəncam verib.
- Prezident İlham Əliyev Nigar Ramiz qızı Məmmədovanın Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Direktorlar Şurası sədrinin müavini təyin edilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev İbrahim Əsəd oğlu Alışovun Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Baş icraçı direktoru təyin edilməsi haqqında sərəncam verib.

# *Prezident İlham Əliyev:*
# "Biz ölkəmizin inkişafı, çiçəklənməsi üçün əlimizdən gələni edirik"





♦ **"Novruz bayramı bizim milli sərvətimizdir. Müstəqil Azərbaycan dövləti də milli mənəvi dəyərlər üzərində qurulmuşdur. Bu il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf edib". Bu sözləri Prezident İlham Əliyev martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə keçirilən ümumxalq şənliyində bəyan edib.**

Dövlətimizin başçısı deyib ki, müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən proseslər bütün Azərbaycan xalqını çox narahat edirdi. Vətəndaş müharibəsi, iqtisadi və siyasi böhran, torpaqlarımızın işğal altına düşməsi nəticəsində Azərbaycanın gələcəyi sual altında idi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət dəyişdi, sabitlik, asayiş bərpa edildi və Azərbaycan inkişaf yoluna qədəm qoydu. O vaxtdan bu günə qədər biz bu inkişaf yolundan dönməmişik.

Son illər Azərbaycanın bütün sahələrdə böyük uğurlara imza atdığını vurğulayan Ölkə Prezidenti bildirib ki, bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin edilir. Biz çalışırıq ki, ölkəmizi bütün mümkün risklərdən qoruyaq, xalqımızın rahat yaşamasını, təhlükəsiz həyatını təmin edək və ölkəmizi inkişaf yolu ilə irəliyə aparaq. Azərbaycan xalqı rahat, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır. Azərbaycanda kriminogen durum çox yaxşıdır. Bu göstəriciyə görə biz dünya miqyasında liderlər sırasındayıq. Biz heç bir ölkənin daxili işinə qarışmırıq, heç bir avantüraya qoşulmuruq, öz işimizlə məşğuluq, öz ölkəmizi inkişaf etdiririk, xalqımızın rifahını təmin edirik. Azərbaycan xalqı öz taleyinin sahibidir. Biz ölkəmizin inkişafı, çiçəklənməsi üçün əlimizdən gələni edirik. Bütün Azərbaycan cəmiyyəti vahid ideya, amal uğrunda birləşib - ölkəmizi gücləndirək, iqtisadiyyatı inkişaf etdirək, xalqımızın rifah halını daha da yüksəklərə qaldıraq.

"Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir ölkədir. Bu ilin ilk ayları bunu bir daha göstərir. Bütün beynəlxalq məsələlərlə bağlı bizim prinsipial mövqeyimiz var və bu mövqeyə heç bir kənar qüvvə təsir edə bilməz. Biz ədalətin, beynəlxalq hüququn, əməkdaşlığın tərəfdarıyıq. Biz heç vaxt imkan verməmişik, vermirik və verməyəcəyik ki, Azərbaycan başqa dövlətlərin maraqlarını təmin etmək üçün qarşıdurma məkanına çevrilsin. Əksinə, Azərbaycan əməkdaşlıq məkanıdır. Biz bölgədə sabitləşdirici, barışdırıcı rol oynayırıq", - deyən ölkə rəhbəri qeyd edib ki, biz öz siyasətimizlə dünya miqyasında böyük hörmət qazanmışıq və bu hörmət getdikcə artır.

Prezident İlham Əliyev deyib ki, beynəlxalq məsələlərə gəldikdə, bizim üçün əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, bu istiqamətdə heç bir irəliləyiş yoxdur. Bunun başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi, bu məsələ ilə bilavasitə məşğul olanların biganəliyi və bəzi hallarda təxribatıdır. Münaqişənin həll olunmaması təkcə Ermənistanın mövqeyi ilə bağlı deyil. Bu məsələ ilə bilavasitə məşğul olmağa mandat alan Minsk qrupunun həmsədrləri pozucu fəaliyyətləri ilə münaqişənin dondurulmasına xidmət edirlər. Onlar öz səlahiyyətlərini aşaraq beynəlxalq təşkilatların işinə müdaxilə edirlər. Ermənistana təzyiq etmək əvəzinə ermənilərə himayədarlıq edirlər, onları qoruyurlar. Münaqişənin həlli əvəzinə qəribə təkliflər verirlər ki, təmas xəttində təhlükəsizlik tədbirləri möhkəmləndirilsin. Bu, o deməkdir ki, işğalçı dövlət özünü daha rahat hiss etsin və işğalı, status-kvonu daha da möhkəmləndirsin. Biz burada həm Azərbaycana qeyri-dost, qeyri-səmimi münasibət, eyni zamanda, riyakarlıq görürük. Bir tərəfdən onların dövlət başçıları dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Digər tərəfdən, Minsk qrupunun həmsədrlərinin pozucu fəaliyyəti status-kvonun möhkəmlənməsinə xidmət edir. Bax, budur münaqişənin uzadılmasının əsas səbəbi və bu siyasətin arxasında hansı amillərin dayandığını Azərbaycan xalqı çoxdan bilir. Bu, ədalətsizlikdir, ikili standartlar siyasətidir. Biz bu siyasəti rədd edirik və bundan sonra bütün kürsülərdə öz sözümüzü deyəcəyik. Azərbaycan dövlətinin siyasəti beynəlxalq hüquqa, ədalətə, əməkdaşlığa əsaslanır. Bizə qarşı belə təxribatçı addımların atılması, əlbəttə ki, cavabsız qalmır və qalmayacaq.

Dövlətimizin başçısı deyib ki, münaqişənin həlli üçün ilk növbədə ölkəmiz, ordumuz daha da güclü olmalıdır. Bu istiqamətdə böyük işlər görülür. Bu gün biz təmas xəttində tam üstünlüyü əldə etmişik. Düşmənə sarsıdıcı zərbələr vurulur, qarşı tərəf panikaya qapılır və anlayır ki, xaricdən siyasi, iqtisadi və hərbi dəstək olmasa işğal edilmiş torpaqları bir həftə belə işğal altında saxlaya bilməyəcək. Biz isə güclənirik, güclənməliyik.

"2016-cı ildə siyasi və iqtisadi islahatlar daha da dərinləşir. Azərbaycan demokratiya yolu ilə gedir. Azərbaycanda bütün azadlıqlar təmin edilir, insan haqları yüksək səviyyədə qorunur", - deyən Ölkə Prezidenti qeyd edib ki, iqtisadi sahədə aparılan dərin islahatlar neft amilindən asılılığımızı tamamilə aradan götürəcək. Keçən ilin sonlarından başlayaraq bu il də davam edən islahatlar siyasəti artıq gözəl nəticələr verir. Azərbaycanın uzunmüddətli, dayanıqlı iqtisadi inkişafının təmin edilməsi üçün konkret addımlar atılır. Biz gələcək iqtisadi fəaliyyətimizi, siyasətimizi yeni iqtisadi model üzərində aparacağıq və yaxın zamanlarda daha da böyük nəticələrə nail olacağıq.

"Biz yeni sahələri işə salırıq ki, o sahələr ölkəmizə böyük siyasi və iqtisadi mənfəət gətirəcək. Nəqliyyat sektorunu xüsusilə qeyd etmək istərdim. Biz indi Şərq-Qərb və Şimal–Cənub dəhlizlərinin yaradılması üzərində işləyirik, ilkin nəticələr var. Apardığımız siyasət, irəli sürdüyümüz təşəbbüslər nəticə verir. Biz Şərq-Qərb nəqliyyat dəhlizinin cəlbediciliyini artırmaq üçün qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə vahid tarif siyasəti aparmaq barədə təşəbbüs irəli sürmüşük. Bu təşəbbüs müsbət qarşılanıb. Artıq işlər görülür. Keçən ilin sonlarında mənim Gürcüstana, Çinə və bu yaxınlarda Türkiyəyə səfərlərim çərçivəsində həmin məsələlər müzakirə edilmişdir", - deyən ölkə rəhbəri qeyd edib ki, Asiyadan Avropaya ən qısa yol Azərbaycan ərazisindən keçəcək. Buna nail olmaq üçün biz lazımi infrastrukturu yaratmışıq və yaradırıq. Şimal-Cənub nəqliyyat dəhlizinin bu yaxınlarda icrasının sürətlənməsi yenə də bizim təşəbbüsümüzlə bağlıdır. İndi həm İran, həm Rusiya ilə danışıqlar aparılır və yenə də Azərbaycan burada öz önəmli rolunu oynayır. Beləliklə, bu dəhlizlər yaranandan sonra onilliklər ərzində Azərbaycan böyük siyasi və iqtisadi mənfəət götürəcək.

Prezident İlham Əliyev deyib ki, neft-qaz sektoru ilə bağlı bu ilin fevral ayında Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının ikinci toplantısı çox böyük uğurla keçirilib. Məşvərət Şurası toplantısının yekunları ilə bağlı Birgə Bəyannamə imzalanıb. Bu Bəyannaməni 11 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, Xorvatiya, Monteneqro, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Avropa Komissiyası imzalayıb. Bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, əlaqələndirmə işləri bundan sonra da davam etdiriləcək. Sənəddə Azərbaycanın bu işlərdə aparıcı, strateji, liderlik rolu qeyd edilib. "Cənub Qaz Dəhlizi" bizim üçün çox böyük əhəmiyyətə malik olan bir layihədir və zəngin qaz resurslarımızı ixrac etməyə imkan verəcək.

Prezident İlham Əliyev dərin məzmunlu nitqini bu sözlərlə yekunlaşdırıb: "Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilib. Təkcə ona görə yox ki, bu il Azərbaycanda Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Ona görə ki, indiki şəraitdə dünyada gedən toqquşmalar, o cümlədən milli, dini zəmində toqquşmalar bizi çox narahat edir. Biz yol göstəririk, nümunə göstəririk. Göstəririk ki, multikulturalizm yaşayır. Multikulturalizmin iflasa uğradığını deyənlər elə multikulturalizmin məhv edilməsinə çalışanlardır. Onlar bəlkə də başa düşmürlər ki, necə böyük səhv buraxırlar. Biz göstəririk ki, bu, mümkündür. Biz göstəririk ki, belə olmalıdır. Biz göstəririk ki, bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, yaşayacaqlar. Azərbaycan dövləti onları, onların maraqlarını, milli duyğularını, ləyaqətini qoruyur. Onlar bizim qardaşlarımızdır. Bizim gücümüz birliyimizdədir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim sərvətimizdir. Biz bunu qorumalıyıq, qoruyacağıq və bir daha demək istəyirəm ki, dünyaya yol göstəririk. Bir çox məsələlərlə bağlı yol göstəririk - inkişaf, müstəqillik, ləyaqət, prinsipial siyasət, xalqlararası, millətlərarası münasibətlər, din-dövlət münasibətləri, energetika siyasəti, nəqliyyat siyasəti. Budur bugünkü Azərbaycanın reallıqları.

Əminəm ki, biz 2016-cı ili də uğurla başa vuracağıq. Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir. Bir daha sizi və bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik edirəm".

*FAKT... HADİSƏ... XƏBƏR...*

## Parlamentin növbəti iclasında 21 məsələyə baxılacaq

♦ **Milli Məclisin aprelin 5-də keçiriləcək iclasının gündəliyi açıqlanıb. APA-nın məlumatına görə, iclasın gündəliyinə 21 məsələ daxil edilib.**

İclasda İnsan hüquqları üzrə müvəkkilin məruzəsi dinləniləcək. İclasın gündəliyinə "Antiinhisar fəaliyyəti haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnzibati icraat haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycanda vərəmlə mübarizə haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" və "İnsan immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" qanunlara dəyişikliklər, habelə Cinayət, Mülki, İnzibati və Torpaq məcəllələrinə dəyişikliklər daxil edilib.

İclasda həmçinin "Əhaliyə tibbi yardımın göstərilməsi, virusologiya müəssisələri üzrə elmi tədqiqatların aparılması və virus preparatlarının istehsalı ilə məşğul olan işçilərin öz xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyə yoluxma, habelə bununla əlaqədar baş vermiş əlillik, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu və ölüm hadisələrinin dövlət icbari sığortası qaydaları haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" qanunun ləğv edilməsi müzakirə ediləcək.

## BU NÖMRƏDƏ




Azərbaycan energetikləri İkinci Dünya müharibəsi illərində
3



Mart hadisələri – xalqımızın qan yaddaşı
4


## Azərbaycan Pakistanda törədilmiş terror aktını qəti şəkildə pisləyir

♦ **Azərbaycan martın 27-də Pakistanın Lahor şəhərində törədilmiş və uşaqlar da olmaqla, çoxlu sayda insanın ölümünə və yaralanmasına səbəb olan terror aktını qəti şəkildə pisləyir. Terrorçu-kamikadzenin uşaqların toplaşdığı məkanı hədəf alması xüsusilə narahatedici məqamdır.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev söyləyib.

"Biz həlak olanların ailələrinə və qardaş Pakistan xalqına dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmasını arzu edirik. Terrorizmdən əziyyət çəkən dövlət kimi, Azərbaycan terrorizmin bütün forma və təzahürlərini pisləyir və terrorizmə qarşı mübarizədə beynəlxalq birliyin səylərini əzmlə dəstəkləyir", - deyə H.Hacıyev vurğulayıb.

## Bakıda 2-ci Avropa-Azərbaycan Biznes Sammiti keçiriləcək

♦ **Mayın 18-də Bakıda 2-ci Avropa-Azərbaycan Biznes Sammiti keçiriləcək.**

AZƏRTAC eastinvest.eu saytına istinadla xəbər verir ki, tədbirdə üç prioritet sahə, o cümlədən kənd təsərrüfatı və qida sənayesi, nəqliyyat və logistika, turizm sahələri üzrə əməkdaşlıq imkanları müzakirə olunacaq.

Təbdir çərçivəsində panel iclaslar, B2B görüşlər təşkil olunacaq. Eyni zamanda, sammitdə Avropa İttifaqı ölkələrini təmsil edən şirkətlərin nümayəndələri Azərbaycanda necə biznes qurmaq, ölkədəki biznes imkanlarından necə faydalanmaq və ölkənin biznes mühiti ilə tanış olmaq barədə məlumatlandırılacaqlar.

aktual

# *"Visions of Azerbaijan"*: ABŞ-Azərbaycan münasibətlərini yenidən qaydasına qoymağın vaxtıdır

**♦ Vaşinqtondakı İrs Fondunun (HERITAGE FOUNDATION) Xarici Siyasət Mərkəzinin direktoru Lük Koffeynin "Visions of Azerbaijan" jurnalında "ABŞ-Azərbaycan münasibətlərini yenidən qaydasına qoymağın vaxtıdır" adlı məqaləsi dərc edilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə ABŞ-Azərbaycan münasibətlərinin tarixinə ekskurs edilir, ölkələrimiz arasında mövcud əlaqələrin regionun gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanır. Tanınmış amerikalı politoloqun fikirlərindəki bəzi mübahisəli məqamlara baxmayaraq, ABŞ-Azərbaycan münasibətlərinə dair Amerikadan baxışın Azərbaycan auditoriyası üçün maraqlı olduğunu nəzərə alaraq məqalənin tərcüməsini təqdim edirik.

Bəzən nəzərə alınmasa da, Azərbaycan ABŞ-ın dünyada qarşılaşdığı bir çox çətinliklər baxımından onun üçün çox vacib bir ölkədir. Vaşinqton və Bakının dirçələn Rusiya, cəsarəti artmış İran, tərəddüd edən müttəfiqlər, böyüyən Çin və islam ekstremizminin artması kimi ortaq çətinlikləri var. Bu iki ölkə arasında sıx əməkdaşlıq və tərəfdaşlıq onların hər ikisi üçün əlverişli ola bilər.

Azərbaycan Avropa və Asiyanı birləşdirən mühüm coğrafi və mədəni yol ayrıcında yerləşir, əsrlər boyu özünün hərbi və iqtisadi baxımdan strateji əhəmiyyətini sübuta yetirib. Deyəsən, bu faktı bir çox ABŞ siyasətçiləri unudur. Son zamanlar ABŞ Azərbaycan, Cənubi Qafqaz və Xəzər regionu ilə münasibətlərində bir qədər kənarda qalmaq mövqeyini seçib. Lakin bu heç də hər zaman belə olmayıb.

### Çoxdankı münasibətlər

ABŞ-Azərbaycan münasibətlərinin tarixi Birinci Dünya müharibəsindən sonra baş tutmuş Paris Sülh Konfransına gedib çıxır. O zaman Azərbaycan Demokratik Respublikasının qısa ömrünün ilk vaxtları idi. Respublikanın xarici işlər naziri Əlimərdan bəy Topçubaşov (Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri-*red*.) Parisdə Birinci Dünya müharibəsinin qalibləri qarşısında müstəqil Azərbaycanı tanıtmaq məqsədi ilə fransızların onun başçılıq etdiyi nümayəndə heyətinə viza verməsini gözləyərkən İstanbulda ilişib qalmışdı.

Günlər həftə oldu, həftələr ay oldu, lakin vizaların verilməsi prosesi uzandı. Nəhayət, ABŞ-ın dövlət katibi Robert Lansinq Azərbaycan nümayəndə heyətinə vizaların əldə edilməsində yardım göstərmək üçün fransalı həmkarı Stefen Pişona məktubla müraciət etdi. Üç aydan sonra Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti Parisə gələ bildi. Topçubaşovun ABŞ Prezidenti Vudro Vilsonla görüşü baş tutdu və bu, Azərbaycan Demokratik Respublikasının de-fakto tanınması ilə nəticələndi. Əfsus ki, bu yeni respublikanın ömrü qısa oldu. Bir neçə aydan sonra Azərbaycan Qızıl Ordu tərəfindən işğal olundu və Sovet İttifaqının tərkibinə daxil edildi (Azərbaycan Sovet İttifaqının tərkibinə 1922-ci ilin dekabrında daxil olub-*red*.).

Azərbaycan nümayəndə heyəti ilə danışıqlardan bir neçə il sonra ABŞ Prezidenti Vudro Vilson San-Fransiskodakı çıxışı zamanı bu görüş barədə xatirələrini bölüşərkən demişdi: "Günlərin birində Azərbaycandan olan bir qrup alicənab və maraqlı cənablar təşrif buyurdu… İdeyalar, azadlıq, hüquq və ədalət konsepsiyaları baxımından mənimlə eyni dildə danışan bir şəxslə söhbət etdim".

Onun fikirləri təəccüb doğurmamalıdır. Azərbaycan qadınları amerikalı həmkarlarından demək olar ki, iki il əvvəl səsvermə hüququ əldə etmişlər.

Soyuq müharibə və Azərbaycanın sovet işğalı zamanı ABŞ və Azərbaycan SSR-i arasında rəsmi diplomatik münasibətlər olmayıb. Təbii ki, ola da bilməzdi. Buna baxmayaraq, Sovet İttifaqının süqutundan sonra ABŞ Prezidenti Corc Buş 1991-ci il dekabrın 25-də, Milad bayramında Azərbaycanın yenidən bərqərar olunmuş müstəqilliyini tanımışdı.

Təəssüf ki, 1990-cı illərin sonuna qədər ABŞ, Azərbaycan da daxil olmaqla, yeni müstəqillik qazanmış keçmiş Sovet İttifaqı ölkələri ilə münasibət qurmaq həvəsini itirmişdi. Lakin bu yanaşma 11 sentyabr terror hücumlarından dərhal sonra dəyişikliyə məruz qaldı. Həmin hadisədən sonra ABŞ beynəlxalq terrorizmə qarşı mübarizədə səylərini gücləndirdi. Belə ki, Əfqanıstanda hərbi əməliyyatlar aparmaq üçün Qafqaz və Orta Asiyadan təhlükəsiz tranzit və dislokasiya hüquqlarını təmin etmək məqsədi ilə ABŞ bu regionla əməkdaşlıq əlaqələrini yeni müstəvidə qurmaq qərarı verdi. Bu ərəfədə Azərbaycan ABŞ üçün xüsusi əhəmiyyət kəsb edirdi.

Azərbaycan beynəlxalq terrorizmə qarşı savaşda ABŞ-la sıx əməkdaşlıq etməklə çətin bir işə qol qoydu. Azərbaycan ABŞ üçün sadəcə arzuolunan müttəfiq deyildi, o həmçinin İraq və Əfqanıstana öz sülhməramlı qoşunlarını göndərməyə razılıq verdi. Hətta Azərbaycan hərbçilərindən bəziləri amerikalı həmkarları tərəfindən medallarla da təltif edildi.

Bakı, həmçinin ABŞ və NATO üçün mühüm tranzit yolları açmışdı. Antiterror tədbirlərinin ən pik zirvəsində ABŞ və NATO-nun Əfqanıstan əməliyyatları üçün nəzərdə tutulmuş sursat və avadanlıqlarının dörddə bir hissəsi Azərbaycan və Gürcüstanın ərazisindən daşınmışdı. Bu müddətdə sayı 100 mindən çox olan beynəlxalq koalisiya qoşunları Əfqanıstana yollanarkən Azərbaycanın hava məkanından istifadə etmişdi.

### Qarşılıqlı münasibətlər

Əfqanıstanda həyata keçirilən missiyaya Bakının dəstəyindən əlavə, Azərbaycan bir çox başqa səbəblərə görə də ABŞ üçün vacib tərəfdaşdır. Əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, Azərbaycan cəmiyyəti olduqca dünyəvidir. Azərbaycanın İsrail və Türkiyə ilə də çox yaxın münasibətləri var və burada İrana qarşı inamsızlıq hökm sürür. Bu, Azərbaycanın xarici siyasətini Amerikanın xarici siyasəti ilə bir araya gətirir.

Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"nın bir hissəsidir və alyansın təlim məşqlərində və zabit mübadiləsi proqramında iştirak edir. Azərbaycan fəal şəkildə NATO-ya üzv olmağa çalışmasa da, alyansın keçirdiyi missiyalara qatılır. Türkiyə və Gürcüstan da daxil olmaqla digər NATO üzvləri və tərəfdaşları ilə yaxın münasibətlər qurur.

ABŞ və Azərbaycan arasında sıx münasibətlərin 11 sentyabr hücumlarından sonra inkişaf etməsinə baxmayaraq, son zamanlar baş vermiş üç hadisə bu münasibətləri bir qədər zəiflətdi. Birincisi, Rusiyanın 2008-ci ildə Gürcüstanı işğal etməsi faktına ABŞ-ın qeyri-müəyyən görünən cavabı olub. İşğaldan sonra Bakıdakı siyasətçilər Amerikanın regiondakı gücünü və təsirini sual altına almağa başladılar və bunu etməkdə haqlı idilər.

İkincisi, Rusiyanın Krımı ilhaq, şərqi Ukraynanı işğal etməsi və özünə birləşdirməsinə Qərbin reaksiyasıdır. Bu, Bakını Qərblə münasibətlərinin dəyərini sual altına qoymağa vadar edib. Həm Gürcüstan, həm də Ukraynada baş vermiş hadisələr nəticəsində dünyanın güc və hakimiyyətə hörmət edildiyi bir hissəsində ABŞ və Qərbin zəif olduğu sezildi.

Son olaraq, ABŞ-ın Əfqanıstanda geri çəkilməsi, sonradan Azərbaycan və bu regionla əlaqələrinin kəsilməsi Bakıda çoxlarını ABŞ-Azərbaycan münasibətlərinin qarşılıq mahiyyətini sual altına qoymağa vadar etdi. Bakıda belə bir fikir yaranıb ki, ABŞ Əfqanıstan müharibəsi ilə bağlı istədiyini əldə




edib və indi onun artıq bir tərəfdaş kimi Azərbaycana ehtiyacı yoxdur. 11 sentyabr terror hücumlarından sonra Azərbaycan Amerika ilə uzunmüddətli əməkdaşlıq qurmağa çalışırdı, qoşunların Əfqanıstandan çıxarılması başlayanda və ABŞ bu regiondan geri çəkiləndə aydın oldu ki, ABŞ, bir zamanlar olduğu kimi, davamlı münasibət qurmaq marağında deyil.

ABŞ-ın Azərbaycanla münasibətlərinin qarşılıqlı təbiəti iki səbəbə görə bəsirətsiz olub: Birincisi, o, Bakıda belə bir fikir yaradıb ki, ABŞ istədiyini əldə edən kimi yoluna davam edəcək. İkincisi, ABŞ-ın regionda formalaşdırdığı xoşməramlı missiyasının təsiri zəifləyib və burada yenidən etimad qazanmaq daha çətin olacaq. ABŞ-ın Rusiya və İrana münasibətdə daha geniş strategiyaya malik olduğu üçün Azərbaycanın nə qədər mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, deyə bilərik ki, bunun gələcəkdə ABŞ-ın siyasəti üçün mənfi nəticələri olacaq.

### Birtərəfli siyasət

Bu gün ABŞ-Azərbaycan münasibətləri regionda Amerikanın təsirinin azalmasının, bəlkə də, ən kəskin nümunəsidir. Bu həmçinin Vaşinqtonun apardığı və ABŞ-ın maraqlarına tamamilə zidd olan birtərəfli xarici siyasətinin nümunəsidir.

Doğru və ya yanlış, Bakıda belə bir rəy hakim kəsilib ki, Azərbaycan insan hüquqları məsələsində Qərb tərəfindən – xüsusilə də Avropa, həmçinin ABŞ tərəfindən davamlı olaraq tənqid atəşinə məruz qalır. Əksinə, Çin və Səudiyyə Ərəbistanının insan hüquqları sahəsindəki fəaliyyətinə münasibətdə, demək olar ki, tam sükut saxlanılır.

ABŞ-ın Azərbaycanla münasibətləri çoxşaxəli yanaşmadan ibarət olmalı, enerji, təhlükəsizlik, insan hüquqları və geosiyasi məsələləri özündə ehtiva etməlidir. İnsan hüquqları kimi yalnız bir məsələ ABŞ-Azərbaycan münasibətlərinin digər aspektlərini üstələməməlidir. Görünən odur ki, son zamanlar bu hal baş verib və hazırda ABŞ-Azərbaycan münasibətləri bundan əziyyət çəkir.

Bu münasibətlər üçün həll olunmalı başqa bir problemin tarixi 1992-ci ilə gedib çıxır. Həmin vaxt Vaşinqtonda təsirli erməni lobbisinin fəaliyyəti nəticəsində Konqres "Azadlığa Dəstək Aktı"nın 907-ci maddəsinə düzəlişi qəbul etmişdi. Qısaca desək, 907-ci maddəyə düzəliş ABŞ-ın Azərbaycana hərbi yardım göstərməsinin qarşısını alır və Azərbaycanı Ermənistanla apardığı müharibədə təcavüzkar kimi göstərir.

Sonuncu məqam daha çox maraq kəsb edir. Nəzərə alsaq ki, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın bir hissəsi kimi qəbul edilən 20 faiz torpaqları Ermənistanın işğalına məruz qalıb. Hazırda 620 mindən çox azərbaycanlı 1990-cı illərin əvvəllərində müharibə nəticəsində ölkə daxilində köçürülmüş şəxslər (məcburi köçkünlər) kimi təsnif edilir. Mən Bakı ətrafında yerləşən bəzi məcburi köçkün qəsəbələrində olmuşam. Evlərini, mülkiyyətini və əksər hallarda yaxınlarını itirmiş insanların ürək dağlayan hekayələrini eşitmişəm.

Corc Buş Administrasiyası 11 sentyabr hücumlarından sonra Azərbaycanın Əfqanıstanda (daha sonra İraqda) keçirilən kampaniyada oynaya biləcəyi vacib rolu qəbul etdi. Hər il 907-ci maddənin tətbiqindən imtina edildi. Beləliklə, bu maddənin tətbiqi dayandırıldı. Sevindirici haldır ki, bir sıra səbəblərə görə, Buş Administrasiyası kimi, Obama Administrasiyası da 907-ci düzəlişin tətbiqindən imtina edir. Azərbaycan yeganə keçmiş sovet respublikasıdır ki, ona qarşı 907-ci maddəyə düzəliş kimi məhdudiyyətlər var. Hətta ən təsadüfi müşahidəçi də görə bilər ki, 907-ci maddənin mənbəyi müəyyən lobbi qruplarının siyasi motivlərindən irəli gəlir və ABŞ-ın regionda daha geniş strategiyası və ya məqsədləri ilə heç bir əlaqəsi yoxdur.

### ABŞ-ın proseslərdə daha yaxından iştirak etməsinin vaxtıdır

İnkişaf edən demokratik ölkə kimi Azərbaycanda insan hüquqları ilə bağlı bəzi narahatlıqlar ola bilər. Lakin uzunmüddətli perspektivdə davamlı tənqid deyil, yalnız ABŞ-ın iştirakı ilə Bakını mükəmməl idarəetməyə doğru gedən yolda dəstəkləmək lazımdır. Demokratikləşmə bir prosesdir, tək bir tədbir deyil. Hətta Amerikanın özünün tarixinə ötəri baxış belə bunu sübut edir.

ABŞ Azərbaycanla münasibət qurmaq üçün strategiya hazırlamalıdır. Bu strategiya dostluq və qarşılıqlı hörmət, iqtisadi rifah, enerji ehtiyatlarından səmərəli istifadəni təbliğ etməli və regionda artan Rusiya, İran və Çin təsirinin nəticələrini nəzərə almalıdır. ABŞ həm Azərbaycana yardım etmək, həm də ABŞ-ın regiondakı maraqlarını önə çəkmək üçün çox şey edə bilər. Bunlar düzgün həyata keçirilərsə, ABŞ-ın iştirakı hamı üçün uduşlu ola bilər.

ABŞ-ın yenidən münasibət qurması ölkə rəsmilərinin yüksək səviyyədə bir neçə simvolik səfəri ilə asanlıqla başlanıla bilər. Bu regionda münasibət qurmaq üçün ABŞ buraya daha çox kabinet səviyyəli rəsmilər göndərməlidir. Buraya daha çox konqresin nümayəndə heyətləri səfər etməlidir. ABŞ-ın analitik və yaxud beyin mərkəzləri, vətəndaş cəmiyyəti nümayəndələrinin səfərləri təşkil edilməlidir. Kabinet səviyyəsində Xəzər regionuna edilən ən son səfər sabiq dövlət katibi Hillari Klintonun 2012-ci ildə Cənubi Qafqaz turu olub. Bunu 11 sentyabr hadisələrindən sonrakı aylarla müqayisə etsək, həmin vaxt təkcə ABŞ-ın müdafiə naziri Donald Ramsfeld Azərbaycana dörd dəfə səfər etmişdi.

İŞİD kimi qrupların baş qaldırdığı bir zamanda regionun tranzit ərazisinə çevrilməsinin və islam ekstremistlərinin burada tərəfdaş cəlb etmələrinin qarşısını almaq üçün ABŞ Azərbaycanla birgə işləməlidir. Buraya təhlükəsizlik sektorunda imkanların artırılması, ABŞ və Azərbaycan arasında kəşfiyyat məlumatlarının daha yaxşı mübadiləsi aid ola bilər. Bunu etməklə hər iki ölkənin təhlükəsizliyinin qorunmasına yardım etmək olar.

ABŞ Dağlıq Qarabağ və ətraf rayonların Ermənistan tərəfindən işğal edilməsi məsələsini beynəlxalq arenada gündəmə gətirməkdə daha böyük rol oynamalıdır. Vaşinqton, həmçinin Yerevanın Rusiya və İranla yaxın münasibətlərinə diqqətlə yanaşmalıdır. ABŞ siyasətçiləri daha yaxşı anlamalıdır ki, Azərbaycan hökumətinin etdiyi hər bir hərəkətə Ermənistanın Dağlıq Qarabağı işğal etməsi prizmasından baxılmalıdır və nəzərə almalıdır ki, bu, Bakının xarici və daxili siyasətinin əsas aparıcı amillərindən biridir.

Dağlıq Qarabağla bağlı sülh danışıqları illərdir dayanıb və təəssüf ki, ABŞ hər iki tərəfi danışıqlar masasına oturtmaq üçün çox az şey edə bilər. Lakin bu məsələ ilə bağlı heç bir fikir bildirməmək hazırkı statusun qeyd-şərtsiz təsdiq edildiyi anlamına gəlir. ABŞ münaqişənin sülh yolu ilə həllinə çağırış etməli və bu həll yolu Ermənistan qüvvələrinin Azərbaycanın bütün ərazilərindən çıxarılmasını nəzərdə tutur.

Sonda ABŞ, həmçinin regionda bütün layiqli müttəfiqlərinə hərbi yardım göstərməli və onların təhlükəsizliyini təmin etməlidir. ABŞ hökumətinin başqa ölkəyə hərbi yardım göstərmək qərarı konqresdə lobbiçilik edən müəyyən qrupların təzyiqinə deyil, Amerikanın təhlükəsizlik maraqlarına əsaslanmalıdır. "Azadlığa Dəstək Aktı"nın 907-ci bölməsi bunun üçün ədalətsiz bir əngəldir.

### Gələcəkdə bizi nə gözləyir?

Hazırda ABŞ qarşısında daha ehtiyatlı və regionda hansı rola malik olduğunu dərk edən bir Azərbaycanı görür. Qlobal nöqteyi-nəzərdən Azərbaycan Qərb və Rusiya ilə olan münasibətləri arasında tarazlığı saxlamağa çalışır. Regional baxımdan isə Azərbaycan Rusiya və İran arasında tarazlığı saxlamaqla, eyni zamanda, mümkün olduğu qədər öz müstəqilliyini qorumaq istəyir.

Azərbaycan Cənubi Qafqazda regional iqtisadi lider və Xəzər regionunda mühüm iqtisadi iştirakçı olmaqda davam edəcəkdir. Düzgün siyasət yürüdülərsə, ABŞ-Azərbaycan münasibətləri hər iki ölkənin mənafeyinə eyni dərəcədə xidmət edə bilər.

Azərbaycan Qərbə tərəf baxmaqda davam edəcək. O anlayır ki, ABŞ regiona gələ də bilər, buradan gedə də bilər. Lakin Rusiya və İran hər zaman burada qalmaqdadır. Buna görə də ABŞ Azərbaycanla münasibətlərini davam etdirməlidir. Azərbaycanı öz qonşuları ilə yaxşı münasibətdə olmağa, həmçinin Qərblə daha dərindən əməkdaşlığa diqqət yetirməyə sövq etməlidir.

Azərbaycan hər zaman bu regionun təhlükəsizliyi və iqtisadiyyatı üçün əhəmiyyətli rola malik olub. Böyük Pyotr 1723-cü ildə İranla müharibə nəticəsində Bakını zəbt edəndə, bu şəhəri regionda bütün işlərin açarı kimi təsvir etmişdi. Günümüzdə də bu, ABŞ üçün eyni məna daşıyır. Əgər Vaşinqtonun dirçələn Rusiya və cəsarəti artmış İranla bağlı iş görmək, Avropanın enerji təhlükəsizliyini yaxşılaşdırmaq və terrorizmə qarşı mübarizə aparmaq üçün böyük strategiyası olacaqsa, Vaşinqtondakı siyasətçilər bu regionu nəzərə almaya bilməz. Regional lider olan Azərbaycanı nəzərə almamaq olmaz.

## *XİN:* "ABŞ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini dəstəkləyir"

**♦ Amerika Birləşmiş Ştatlarının xarici siyasəti federal hökumət tərəfindən müəyyən edilir. ABŞ tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi dəstəklənir.**



Bunu "Trend"ə Havay ştatının nümayəndələr palatasında qəbul edilmiş qərarı şərh edən XİN-nin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

H.Hacıyev deyib: "Xatırlatmaq istərdim ki, ABŞ-dakı radikal erməni lobbisi 10 mart 2016-cı il tarixində bu məsələni ABŞ-ın Havay ştatının senatının gündəliyinə gətirməyə çalışsa da, uğursuzluqla üzləşdi. Belə ki, ştat senatı gündəliyə gətirilməsinə cəhd edilən anti-Azərbaycan xarakterli iki qətnaməni rədd etdi. Ştat Senatının rəhbərliyi 11 mart tarixində rəsmi bəyanat verərək, ABŞ siyasətinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək ifadə etdi və Havay ştat senatının bu qətnamələri qəbul etməyəcəyini diqqətə çatdırdı".

XİN rəsmisi qeyd edib ki, bu uğursuzluqdan sonra təxribatçı və cılız əməllərini davam etdirən Ermənistan və ABŞ erməni lobbisi Havay ştatının yerli qanunverici orqanının nümayəndələr palatasına üz tutdu: "Bütün bunlar bir daha ona dəlalət edir ki, Ermənistanın danışıqlar prosesində iştirakı yalnız imitasiya və beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyır. Ermənistanın əsl məqsədi işğal olunmuş Azərbaycan ərazilərinin ilhaq edilməsidir".

NÜFUZLU RƏY

## *Rob Sübhani:* "Nüvə Təhlükəsizliyi Sammitinə dəvət Azərbaycanın strateji əhəmiyyətini göstərir"

**♦ "Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Barak Obama tərəfindən Vaşinqtonda IV Nüvə Təhlükəsizliyi Sammitinə dəvət edilməsi Azərbaycanın strateji əhəmiyyətini, onun dini tolerantlığını, islahatlara yönəlmiş iqtisadiyyatını və Böyük Yaxın Şərqin hüdudlarında yüksələn ulduzun nüfuzunu əks etdirir". Bunu "Trend"ə ABŞ-ın "Caspian Group Holdings" şirkətinin baş direktoru Rob Sübhani deyib.**



Onun sözlərinə görə, Prezident İlham Əliyevin Vaşinqtona dəvət edilməsi, ən əsası, Azərbaycanın dünya arenasında önəminə işarədir: "Azərbaycan artıq sovet respublikası deyil, millətlər cəmiyyətində etimad qazanmış və etibarlı tərəfdaşdır".

R.Sübhaninin fikrincə, Prezident İlham Əliyevin qonşular, onların iddiaları və rəqabət aparan maraqları arasında balansın saxlanılmasına yönəldilmiş müdrik xarici siyasəti bu dəvət üçün daha bir səbəbdir.

O vurğulayıb ki, Azərbaycan təməldə mövcud olan gərginliyə baxmayaraq, İran İslam Respublikası və Rusiya ilə normal əlaqələr saxlayır.

R.Sübhani xatırladıb ki, Azərbaycan erməni işğalına rəğmən, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsinə sadiqdir: "Münaqişəni sülh yolu ilə həll etmək arzusunu Vaşinqtonda qiymətləndirirlər. Bu nümayiş etdirir ki, İlham Əliyev ölkəyə məsuliyyətlə rəhbərlik edir. Prezident İlham Əliyevin sayəsində baharın gəlişi ilə çiçək açan gül kimi Azərbaycan dünyanın güclü dövlətinə çevrilməklə çiçəkləndi".

Qeyd edək ki, Vaşinqtonda Nüvə Təhlükəsizliyi Sammiti 31 mart - 1 aprel tarixlərində keçiriləcək.

## *Millət vəkili:* "İlham Əliyevin nüvə sammitində iştirakı Azərbaycanın regionda önəmli roluna müsbət təsir göstərəcək"

**♦ "Prezident İlham Əliyevin Vaşinqtonda IV Nüvə Təhlükəsizliyi Sammitinə dəvət edilməsi çox əhəmiyyətli bir hadisədir". Bunu "Trend"ə açıqlamasında millət vəkili Bəxtiyar Əliyev deyib.**



Millət vəkili bildirib ki, Azərbaycan bu gün nəinki regionda, hətta dünyada ciddi bir partnyor kimi qəbul edilən ölkədir: "Bu həm də onun göstəricisidir ki, sülhün, sabitliyin qorunmasında, dünyada enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolu böyük və əhəmiyyətlidir. Azərbaycanda gedən yüksək iqtisadi inkişaf, demokratik proseslər ölkəni dünyada əhəmiyyətli bir dövlətə çevirib".

B.Əliyev qeyd edib ki, bu gün Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında strateji, qarşılıqlı əməkdaşlıq səviyyəsində münasibətlər qurulur: "Hesab edirəm ki, dövlət başçısının bu səfəri qarşılıqlı münasibətlərə, Azərbaycanın regionda önəmli roluna öz müsbət təsirini göstərəcək".

ƏMƏKDAŞLIQ

## BMT-nin mənzil-qərargahında "İpək Yolu-2030" layihəsi ilə bağlı simpozium keçirilib

**♦ Nyu-Yorkda, BMT-nin mənzil-qərargahında Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin BMT-dəki daimi nümayəndəliklərinin təşkilatçılığı ilə "İpək Yolu-2030" layihəsi üzrə simpozium keçirilib.**



AZƏRTAC-ın məlumatına görə, tədbirdə BMT yanında xarici ölkələrin diplomatik korpusunun nümayəndələri, türk dünyasının görkəmli simaları, tanınmış alimlər iştirak ediblər.

Simpoziumda çıxış edənlər bildiriblər ki, yeni "İpək Yolu" layihəsi Avrasiya qitəsində Şərqdən Qərbə - Çindən Mərkəzi Asiyaya, Xəzər regionu və Türkiyəyə qədər ticarət yollarını yenidən birləşdirməklə yanaşı, həmçinin ölkələr arasında iqtisadi, siyasi və mədəni inkişaf sahəsində böyük rola malik olacaq.

Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harris layihə ilə bağlı deyib: "Amerika Yəhudi Komitəsi ilə Azərbaycan arasında uzun müddətdir ki, dostluq əlaqələri qurulub. Son on ildə doqquz dəfə Bakıda olmuşam. Azərbaycan ABŞ üçün çox əhəmiyyətli bir ölkədir. Təşkilatımızın əsas məqsədlərindən biri də odur ki, biz Azərbaycan ilə ABŞ arasında daha sıx əməkdaşlıq əlaqələri yaradaq. Onu da qeyd edim ki, yeni "İpək Yolu" layihəsində Azərbaycanın əvəzolunmaz yeri var".

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva simpoziumda çıxış edərək bildirib ki, tarixi "İpək Yolu" üzərində yerləşən Azərbaycan əsrlər boyu ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Dövlətimizin başçısı İlham Əliyevin ölkəmizdə tolerantlığın və mədəni, dini müxtəlifliyin qorunmasını təmin etmək, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq məqsədilə yaratdığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ötən dövrdə Azərbaycan multikulturalizminin elmi əsaslarla öyrənilməsi və dünyada təbliği ilə bağlı bir sıra mühüm işlər həyata keçirib. 2015-2016-cı dərs ilində artıq 11 xarici ölkə universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir.

Tədbirin sonunda türk dünyasının görkəmli alimlərinə mükafatlar təqdim olunub.

NƏQLİYYAT

## Naxçıvan-Məşhəd qatarı istifadəyə veriləcək

**♦ Yaxın gələcəkdə Naxçıvan-Məşhəd qatarı istifadəyə veriləcək.**

AZƏRTAC-ın məlumatına görə, bu sözləri İranın Dəmir Yolları İdarəsinin rəsmisi Abbas Hacı Fəthəli yerli mətbuata açıqlamasında deyib. O bildirib ki, bu məsələni fevralda "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov ilə Naxçıvanda keçirdiyi görüşdə müzakirə edib və razılıq əldə olunub.

Qeyd etmək lazımdır ki, Naxçıvan-Məşhəd qatarının istifadəyə verilməsi üçün zəruri infrastruktur mövcuddur. Hələ SSRİ dövründə Moskva-Tehran qatarı Naxçıvan Muxtar Respublikasının Culfa rayonundan İran ərazisinə keçərək Təbrizə, oradan isə Tehrana doğru hərəkət edirdi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ötən əsrin 90-cı illərində həmin infrastrukturdan istifadə etməklə Naxçıvan-Təbriz marşrutu ilə qatar istifadəyə verilmiş, insanların gediş-gəlişi intensivləşmiş, ticarət əlaqələri isə genişlənmişdi. Sonralar rentabelli olmadığı üçün Naxçıvan-Təbriz marşrutu fəaliyyətini dayandırdı.

Bu gün Naxçıvanın iqtisadi inkişafı və əhalinin sosial vəziyyətinin yaxşılaşması Naxçıvan-Məşhəd qatar marşrutunun istifadəyə verilməsi üçün imkan yaradıb.

energetika

# Azərbaycan İndoneziya ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlıdır

♦ **Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu barədə energetika nazirinin müavini Natiq Abbasovun İndoneziyanın Azərbaycana yeni təyin olunmuş səfiri Hüsnan Fənani, eləcə də bu ölkənin Xarici İşlər Nazirliyinin analitiklərindən ibarət nümayəndə heyəti ilə keçirdiyi görüşdə danışılıb.**



Görüşdə Azərbaycan və İndoneziya arasında enerji əməkdaşlığının tədqiqi, Azərbaycanın enerji sektoruna sərmayə qoyuluşu imkanları və təcrübə mübadiləsi kimi məsələlər ətrafında müzakirələr aparılıb. Bu il fevralın 1-də Bakıda keçirilən “İndoneziya-Azərbaycan Energetika Forumu”nun əhəmiyyətindən bəhs edən energetika nazirinin müavini N.Abbasov Azərbaycanın öz enerji təhlükəsizliyini tam təmin etdiyini, neft-qazla yanaşı, həm də elektrik enerjisi ixrac edən ölkəyə çevrildiyini diqqətə çatdırıb. Bildirib ki, bu gün Azərbaycanın təşəbbüsü ilə nəinki regionun, hətta Avropa qitəsinin enerjiyə tələbatının təmin olunması üçün nəhəng layihələr reallaşdırılır.

Nazir müavini SOCAR-ın İndoneziyada müxtəlif layihələr həyata keçirdiyini xatırladaraq bildirib ki, Azərbaycan İndoneziya ilə enerji sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

İndoneziya nümayəndə heyətinin üzvləri ölkələrinin neft sahəsinə investisiya qoyuluşu, qaz idxalı və ixrac edilən neftin həcminin artırılmasına maraq göstərdiyini, mövcud imkanlar çərçivəsində bu məsələlərin reallaşma perspektivlərini diqqətə çatdırıblar.

N.Abbasov enerji əməkdaşlığının genişləndirilməsi üçün “Azərbaycan Respublikası Hökuməti və İndoneziya Respublikası Hökuməti arasında energetika və mineral ehtiyatlar sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun imzalanmasının vacibliyini qeyd edib. Bildirilib ki, İndoneziya tərəfi layihəyə son təkliflərini göndərib və hazırda sənəd üzərində hazırlıq işləri yekunlaşmaq üzrədir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Təmir işləri aparılıb

♦ **Gəncə Regional Elektrik Şəbəkəsinin (REŞ) xidməti ərazisində istismar səviyyəsinin daha da yaxşılaşdırılması, dayanıqlılığın artırılması istiqamətində görülən işlər cari ilin birinci rübündə də davam etdirilmişdir.**

“Azərenerji” ASC-nin Elektrik Enerjisinin Ötürülməsi İdarəsindən Səhmdar Cəmiyyətin Mətbuat xidmətinə bu barədə daxil olan məlumata görə, 500 kV-lik “Samux” yarımstansiyasında 1-ci “Samux” hava xəttinin avadanlıqları təmir olunmuşdur. Eyni zamanda 330 kV-lik “Gəncə” yarımstansiyasında 110 kV-lik ikinci şin sisteminin gərginlik transformatoru dəyişdirilmiş, eyni gərginlikli 2-ci “Kür”, 6-cı “Gəncə” və 1-ci “Yenikənd” hava xəttinin eleqaz açarı, cərəyan transformatoru və xətt ayırıcısı təmir edilmişdir. Bütün bunlarla yanaşı həmin bu dövrdə 330 kV-lik “Ağstafa” yarımstansiyasında 1 saylı gücü 200 MVA olan avtotransformator, 1 və 2 saylı gücləri müvafiq olaraq 400 və 630 KVA olan xüsusi sərfiyyat transformatorları, 1-ci “Ağstafa” HX-nin eleqaz açarı və cərəyan transformatoru da təmir edilmişdir.

Həmin dövrdə müəssisənin balans mənsubiyyətinə aid olan digər yarımstansiyalarda da mühüm işlər görülüb. Daha doğrusu, 110 kV-lik “Gəncə-1”, “Gəncə-2”, “Zəyəm”, “Alabaşlı”, 330 kV-lik “GAZ” və digər yarımstansiyalarda transformatorlar, o cümlədən xüsusi sərfiyyat transformatorları, boşaldıcılar, yağ və eleqaz açarları təmir edilmiş, digər ölçü transformatorları isə quraşdırılmışdır.

# Azərbaycan energetikləri İkinci Dünya müharibəsi illərində

♦ **1939-cu ilin sentyabrında başlayan İkinci Dünya müharibəsi, 1941-ci ilin iyununda isə faşist Almaniyasının SSRİ-yə qəfil hücumu ilə başlayan Böyük Vətən müharibəsi bu böyük ölkənin çoxsaylı xalqlarını düşmənə qarşı mübarizədə sıx birləşdirdi, güclü beynəlmiləlçilik hissinin nümayişinə çevrildi. Müharibədə qazanılan böyük qələbə isə insanların həm ön, həm də arxa cəbhədəki kütləvi qəhrəmanlıqlarının məntiqi nəticəsi idi...**



Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, müharibənin əvvəlindən axırınadək bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi ilə faşizmə qarşı mübarizədə fəal iştirak etdi. Paytaxtımız Bakı SSRİ-nin strateji cəhətdən çox mühüm şəhərlərindən birinə çevrildi. Burada yaradılan çoxprofilli sənaye strukturunun inkişafı isə öz növbəsində elektrik enerjisinə olan tələbatı da artırırdı. Azərbaycanın bütün iqtisadiyyatı müharibə şəraitinə uyğun olaraq yenidən qurulmuşdu. Fəhlə və qulluqçuların iş günü 11-12 saata qaldırılmış, məzuniyyətlər ləğv edilmişdi. Ərzaq və çox işlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq edilmişdi.

Müharibənin ilk günlərindən keçmiş ittifaq respublikalarının energetikləri kimi, Azərbaycan energetikləri də öz işlərini kökündən dəyişərək yenidən qurmağa başladılar. Energetiklərin qarşısında duran əsas vəzifə xalq təsərrüfatını fasiləsiz olaraq elektrik enerjisi ilə təchiz etmək idi. Eyni zamanda, energetika müəssisələrinin təhlükəsizliyi və hava hücumundan müdafiənin təşkil edilməsi də əsas məqsəd kimi qarşıya qoyulmuşdu.

Qeyd edək ki, 1930-cu illərin ortalarından etibarən, respublika sənayesinin inkişaf sürəti elektrik stansiyalarının inkişaf tempini üstələyirdi. Elə həmin dövrdə Azərbaycanda fəaliyyət göstərən energetika obyektlərini özündə birləşdirmək və onların fəaliyyətini koordinasiya etmək məqsədilə “Azərenerji” Dövlət Energetika İdarəsi yaradılmış və enerjisistemin inkişaf proqramı hazırlanmışdı. Qəbul olunmuş proqrama əsasən, 1939-cu ildə “Qırmızı Ulduz” İstilik Elektrik Stansiyasında hər birinin gücü 25 MVt olan iki istilik ayrımlı turbin, “Кrasin” İES-də isə 25 MVt gücündə kondensasiyalı turbin istifadəyə verilmişdi. Həmçinin Sumqayıt sənaye şəhərində 1937-ci ildən tikilməyə başlayan İstilik Elektrik Mərkəzinin 24 MVt gücündə birinci turbini 1941-ci ilin fevralında, eyni gücdə ikinci turbin isə həmin ilin avqust ayında sistemə qoşulmuşdu. Bu illərdə respublikamızın bölgələrində avtonom rejimdə işləyən 200-dən çox kiçik su və istilik elektrik stansiyaları fəaliyyət göstərirdi.

1940-cı ildə respublika üzrə elektrik enerjisinin istehsalı 1,8 milyard kilovat-saat, gücü isə 296 MVt təşkil edirdi. Azərbaycanda 20 kV-lik və yuxarı gərginlikli elektrik verilişi xətlərinin ümumi uzunluğu isə 650 kilometri ötmüşdü. Həmin illərdə respublikamız elektrik enerjisinin istehsalına görə, Rusiya və Ukraynadan sonra üçüncü yeri tuturdu. Bütün bunlar isə müharibə dövründə Azərbaycanın paytaxtında yaradılan çoxprofilli sənaye strukturunu fasiləsiz olaraq elektrik enerjisi ilə təchiz etməyə imkan verirdi.

Böyük Vətən müharibəsinin ilk ilində elektrik stansiyaları və elektrik şəbəkələrində xidmət göstərən qaravul heyəti sutkada 12 saatlıq iş rejiminə keçdi. Orduya səfərbər edilmiş energetiklərin iş yerinə isə qadın və yeniyetmələr cəlb olundular. Həmin dövrdə elektrik stansiyalarında buxar qazanlarının ocaqçıları, turbin maşinistləri, montyor və sürücü qismində çalışan qadınları görmək adi hala çevrilmişdi. Energetika müəssisələrində çalışan gənclərdən isə ixtisaslı kadrlar hazırlanması prosesi genişləndirilirdi. Bir sözlə, müharibə illərində partiya və hökumətin “Hər şey cəbhə üçün, hər şey qələbə üçün” şüarı “Azərenerji”nin çoxminlik kollektivinin əsas devizinə çevrilmişdi.

Faşist Almaniyasının SSRİ-yə qəfil hücumu enerjisistemin iş rejiminində də ciddi dəyişikliklərə səbəb olmuşdu. İlk vaxtlar elektrik stansiyalarına daxil olan təbii qaz tamamilə kəsilmiş, enerji yükü isə kəskin şəkildə aşağı düşmüşdü. Əgər müharibəyə qədər axşam saatlarında elektrik enerjisinin artan tələbatını ödəmək çətinlik törədirdisə, müharibənin ilk ilində belə böyük gücə ehtiyac qalmamışdı.

Müharibənin məhrumiyyətləri hər şeydə qənaət etməyi tələb edirdi: xüsusilə yanacaq, elektrik enerjisi və mal-material ehtiyatlarının qənaətlə işlədilməsinə xüsusi diqqət yetirilirdi. Respublika energetiklərinin bu tələblərə ciddi əməl etməsi nəticəsində sərfiyyatın aşağı salınmasına nail olunmuş, itkilərin qarşısı alınmış, enerjisistemin etibarlı iş rejimi təmin olunmuşdu. O illərdə enerjisistemin inkişafı ilə yanaşı, elektrik avadanlıqlarının etibarlılıq göstəricilərinin yaxşılaşdırılmasına da xüsusi diqqət göstərilirdi. Həyata keçirilən əməli tədbirlər nəticəsində elektrik stansiyaları və şəbəkələrində qəza açılmalarının sayı xeyli azaldılmışdı.

Müharibə dövrünün bütün çətinlik və məhrumiyyətlərinə baxmayaraq, energetiklərin fədakarlığı, gərgin və yaradıcı əməyi hər sahədə nailiyyətlərə yol açırdı. Həmin illərdə onlar tərəfindən irəli sürülən çoxlu sayda səmərəli təkliflər ölkə iqtisadiyyatına yüz min manatlarla xeyir gətirmişdi.

Azərbaycanın energetikləri cəbhədə döyüşən əsgər və zabitlərə əllərindən gələn köməkliyi əsirgəmirdilər. Onlar müharibə illərində müdafiə fonduna könüllü olaraq milyonlarla rubl vəsait və qiymətli əşyalar vermiş, cəbhəyə isti paltarlar göndərmiş, tank və təyyarələrin hazırlanması üçün külli miqdarda vəsait toplamış, cəbhəçilərin ailə üzvlərinə təmənnasız olaraq yardım göstərmişdilər. O illərdə təkcə “Qırmızı Ulduz” İES-də keçirilmiş iməciliklərin hesabına müdafiə fonduna 350 000 rubl keçirilmiş, cəbhəyə 1898 komplekt isti geyim dəsti göndərilmişdi. “Krasin” İES-də isə təkcə tank hazırlanması üçün 40 min rubl vəsait yığılmışdı.

*(ardı var)*

**Sadıq QARAYEV**

## DÜNYADAN SORAQLAR

*BELARUS*

### Reaktor may ayının sonunda quraşdırılacaq

♦ **Belarus AES-i birinci enerji blokunun əsas elementləri bu ilin sonunadək quraşdırılacaq. Vəsaitlərin mənimsənilməsinə 445 milyon dollar xərclənəcəyi planlaşdırılıb.**

BelAES-in birinci enerji bloku reaktorunun montajına may ayının 28-də başlanacaq. Proses iki həftə davam edəcək. Korpus artıq montaj zonasına gətirilib, o, birinci enerji bloku binasının yaxınlığındadır.

2016-cı ildə birinci enerji blokunun tikintisində əsas əməliyyatları həyata keçirmək planlaşdırılıb – reaktor korpusu, buxar generatorları, boru aqreqatları, elektrotexnika avadanlıqları montaj ediləcək. İl ərzində həmçinin 42 min ton armatur və armatur məmulatlarının montaj olunması, 235 min kubmetr beton tökülməsi, buraxılış-ehtiyat qazanxanasının istismara verilməsi planlaşdırılıb.

Stansiyanın tikintisində ilin sonunadək Rusiya tərəfi ilə bağlanan müqaviləyə əsasən 445 milyon dollar mənimsəniləcək. Bu məlumat Belarus və xarici jurnalistlərlə Ostrovetsdə AES-in tikinti meydançasında görüşü zamanı səsləndirilib.

BelAES layihəsinin reallaşdırılması üçün Rusiya tərəfi ilə hökumətlərarası sazişlər, o cümlədən atom enerjisindən dinc məqsədlərlə istifadə olunmasında, nüvə təhlükəsizliyi sahəsində əməkdaşlıq, eyni zamanda AES tikintisi dəyərinin 90 faizi qədər, 10 milyard dollar həcmində dövlət krediti verilməsi barədə saziş imzalanıb.

Belarus AES – Qrodno vilayətinin Ostrovets şəhəri yaxınlığında inşa edilən AES-2006 tipli stansiyanın layihəsidir. O, ümumi gücü 2400 MVt olan iki enerji blokundan ibarət olacaq. Baş müqaviləyə əsasən birinci enerji blokunu 2018-ci ildə, ikinci bloku isə 2020-ci ildə istismara buraxmaq planlaşdırılır.

*UKRAYNA*

### ZAES-ə yeni nüvə yanacağı verilib

♦ **Nüvə yanacağının diversifikasiyası proqramı çərçivəsində Zaporojye AES-ə «Westinqhouse» şirkəti tərəfindən nüvə yanacağının ilk partiyası verilib.**

Bu yanacağı amerikalıların adına yazmaq şərti xarakter daşıyır, çünki o, İsveçdə hazırlanır. Yanacaq Zaporojye Atom Elektrik Stansiyasına (ZAES) verilmə mərasimində istehsalçı şirkətin nümayəndələri də iştirak ediblər. Yanacağın verilməsi zamanı heç bir əyintiyə yol verilmyib.

Yeni yanacağın tətbiqi reaktor qurğusu sistemlərində müəyyən dəyişiklikləri nəzərdə tutur. Onlardan biri daxili reaktor nəzarətinin modifikasiyasıdır. Həmin modifikasiya istilikayırma hissələrin istismarına nəzarəti təmin edir. Elə bu səbəbdən də ZAES-ə yanacağın qəbulu ilə paralel surətdə «Westinqhouse» şirkətinin mütəxəssisləri ilə müşavirə keçirilib.

Yeni yanacağın tətbiqi işləri digər istiqamətlərdə də aparılır. Belə ki, hazırda Ukraynanın nüvə tənzimlənməsi üzrə dövlət müfəttişliyində ZAES-də «Westinqhouse»nin nüvə yanacağının tətbiqi barədə texniki qərar saxlanılır.

ZAES-dəki 5-ci enerji bloku «pilot» bloku hesab edilir, orada yeni yanacaq növünün tətbiqi və sınaq istismarı sahəsində işlər həyata keçiriləcək. Sınaq istismarının nəticələri imkan verərsə, sonralar belə yanacağın yüklənməsi 3-cü, 4-cü, və 1-ci enerji bloklarda da aparılacaq.

*CAR*

### Enerji qıtlığı probleminin həlli üçün

♦ **«Kuberq» AES hazırda Cənubi Afrika Respublikasını daha ucuz elektrik enerjisi ilə təmir edir. Atom stansiyasının ucaldılması baha başa gəlir, lakin sonralar o, öz xərcini artıqlamasilə ödəyir, obyektləri etibarlı enerji ilə təmin edir.**

«Rosatom» Dövlət Korporasiyasının Mərkəzi və Cənubi Afrikada regional vitse-prezidenti Viktor Polikarpov Yohannesburqda (CAR) keçirilən «İndaba: Afrika 2016 energetikası» forumunda çıxış edib. Forumda CAR energetika departamentinin baş direktoru Uolsli Barnard, Zimbabvenin və Zambiya energetika nazirliklərinin, beynəlxalq təşkilatların: Ümumdünya Bankının, bir sıra firmaların nümayəndələri iştirak ediblər.

Cənubi Afrika Milli Energetika Assosiasiyasının (SANEA) rəhbəri Brayan Stethem konfransın açılışı zamanı bəyan edib: «Energetika sosial-iqtisadi inkişafın drayveridir, o, təhsilə, səhiyyəyə, biznesə yeni impuls verir. Afrikanın inkişaf potensialı hazırda infrastruktur çatışmazlığı cəhətdən, o cümlədən energetika infrastrukturu cəhətdən məhduddur». Ümumdünya Bankının verdiyi məlumata görə, Afrikanın gələcəyi etibarlı elektrik enerjisinə sahib olmaq bacarığından asılıdır.

Bu fikrə «Atom energetikası: növbəti addımlar» ekspert diskussiyasının iştirakçıları da tərəfdar çıxıblar. Müzakirələr Cənubi Afrikanın AES tikintisi proqramının tərəqqisinə, habelə elektrik enerjisinin çatışmazlığından əziyyət çəkən qitənin hüdudlarından kənarda atom enerjisinin tətbiqi imkanlarından asılıdır. «Cənubi Afrikaya və qitənin digər ölkələrinə ekoloji cəhətdən təmiz və etibarlı baza generasiyasına, atom energetikasına nail olmaq çox vacibdir – bu, Afrika qitəsinə öz potensialını açmağa imkan verərdi, - deyə Viktor Polikarpov bəyan edib. – İndi məsələ Afrikanın atom enerjisini özünə rəva görüb-görmədiyindən deyil, Afrikanın atom enerjisindən imtina edə biləcəyindən asılıdır. Ümumdünya Bankının verdiyi son məlumata görə bu sualın cavabı tamamilə aydındır», - deyə o əlavə edib.

Polikarpov göstərib ki, energetikaya xərclər prizmasından deyil, uzunmüddətli investisiya baxımından yanaşmaq gərəkdir. Yeni elektrik enerjisi mənbəyi seçilərkən xidmət müddətində istehsal olunan elektrikin hər kilovat-saatının son dəyərinin göstəricisi daha vacib sayılmalıdır.



«Elə bu səbəbdən «Rosatom» Dövlət Korporasiyası beynəlxalq bazarda öz mövqeyini dəyişib və hazırda müştərilərinə AES tikintisi və istismarı ilə əlaqədar xidmət göstərməyə çalışır. Şirkətin şaquli inteqrasiya olunması faktı onu göstərir ki, biz istehsal-satış zəncirinin bütün aspektlərini nəzarətdə saxlamaq iqtidarındayıq, bu isə öz fəaliyyətimizdə rəqabət qiymətlərini tənzimləməyə imkan verir», - deyə V.Polikarpov əlavə edib.

O, həmçinin bildirib ki, Cənubi Afrika atom energetikası sahəsində böyük təcrübəyə malikdir və AES-ləri uğurla inşa və istismar edə bilir: «Ölkə 30 ildən artıqdır ki, «Kubert» atom elektrik stansiyasını istismar edir, «Safari-1» reaktorunun isə fəaliyyət müddəti 50 ili keçib. «Safari-1» bu gün dünyada ən səmərəli fəaliyyətdə olan reaktorlardandır, hazırda o, 60-dan çox ölkəyə tibb izotopları göndərir, Cənubi Afrika nüvə fizikləri və mühəndisləri yer üzərində ən yaxşılar sırasındadır.

*BÖYÜK BRİTANİYA*

### 1000 MVt gücündə dəniz külək parkı tikiləcək

♦ **Danimarkanın «DONG Enerqy» şirkəti Yorkşir sahillərində 1,2 QVt gücündə nəhəng «Hornsea» külək parkının tikintisinə başladığını təsdiqləyib. İstismara verildikdən sonra o, ən iri dəniz külək parkı və gücü 1000 MVt-dən çox olan birinci bu cür park olacaq.**

«DONG Enerqy» şirkətinin baş direktoru Henrik Poulsen bildirib: «Biz dəniz külək energetikasının sərhədlərini genişləndirən bu nəhəng külək parkının tikintisinə sevinirik. «Hornsea»da «Race Bank», «Westermost Rouqh» və «Lincs» ilə birlikdə Britaniyanın şərq sahillərində nəhəng generasiya meydanı əmələ gətirir və cəmiyyəti ekoloji cəhətdən təmiz və müstəqil enerji ilə təmin etməkdə bizə yardımçı olur».

«Hornsea» layihəsi 2014-cü ilin aprel ayında Böyük Britaniya hökuməti tərəfindən bəyənilib. Müqavilədə ilk 15 il ərzində elektrik enerjisinin təsdiqlənmiş tərəfi nəzərdə tutulur. Park 2020-ci ildə istismara veriləcək.

Bu layihə «DONG Enerqy» şirkətinin strateji məqsədinə – 2020-ci ilədək dəniz külək parklarının gücünü 6,5 QVt-yə çatdırmağa imkan verəcək. Şirkət nümayəndələrinin sözlərinə görə, sifarişlərin həcmi texnologiyanı optimallaşdırmağa və son nəticədə elektrik enerjisinin dəyərini aşağı salmağa şərait yaradacaq.

1200 MVt gücündə olan «Hornsea» külək parkı şirkətin artıq reallaşdırdığı «Walney Extension» külək parkından (660 MVt) iki dəfəyədək üstün olacaq. Onun tikintisi layihəsi 2015-ci ilin oktyabrında bəyənilib.

«Hornsea» külək parkı Yorkşir sahillərindən 120 kilometr aralıda, 407 kvadratkilometrlik ərazidə yerləşəcək. İstifadə olunacaq əsas turbin kimi «DONG Enerqy», «Siemens»in 7 MVt gücündə, hündürlüyü 190 metrn olan aqreqatı seçib. Şirkət həmçinin «Hornsea» külək parkını genişləndirmək hüququ qazanıb – onun ikinci və üçüncü növbələri istismara veriləndən sonra ümumi gücü 3 QVt-yə çatacaq. Ötən ilin sonunda «DONG Enerqy» bəyan edib ki, 2020-ci ilədək o, Böyük Britaniyanın külək energetikasına 6 milyard funt ayırmağı planlaşdırır.

*MƏRAKEŞ*

### Afrikada ilk günəş elektrik stansiyası

♦ **Mərakeşdə istifadəyə verilən «Nur-1» elektrik stansiyasının (160 MVt gücündə) birinci növbəsi ümumi şəbəkəyə qoşulub. Günəş elektrik stansiyasının açılış mərasimində kral VI Məhəmməd iştirak edib. Stansiya Uarzazat şəhərinin yaxınlığında yerləşir.**

Stansiya istilikdaşıyıcıda günəş enerjisinin parabolik güzgülərlə toplanması prinsipi ilə işləyir. istilikdaşıyıcı sonradan turbini və generatoru hərəkətə gətirir. Mrakeş Günəş Enerjisi Agentliyinin (MGEA) verdiyi məlumata görə, stansiyanın dəyəri 800 milyon avroya bərabərdir. Tikinti işlərinə 2013-cü ilin may ayında başlanan stansiya Səudiyyə Ərəbistanının və İspaniya şirkətləri tərəfindən inşa edilib.

Gözlənildiyi kimi, stansiyanın bütün növbələrinin istismara verilməsindən sonra onun ümumi qoyuluş gücü 2 QVt-yə çatdırılacaq, ərazisi isə 2500 hektar təşkil edəcək ki, bu da Mərakeş paytaxtı Rabat şəhərinin ərazisindən çoxdur. Stansiya 9 milyard dollara başa gələcək. Layihə beynəlxalq maliyyə institutlarının, həmçinin Avropa investisiya fondlarının iştirakı ilə müəyyənləşdirilir. Nəzərdə tutulur ki, enerjinin bir hissəsi Cəbəllütariq boğazı və İspaniya vasitəsilə Avropaya ötürüləcək.

Mərakeş Şimali Afrikada öz faydalı qazıntı yanacağı ehtiyatları olmayan və enerji resurslarının 90 faizini idxal edən yeganə ölkədir. 2030-cu ilədək Mərakeş lazımi enerjinin yarıdan çoxunu bərpa olunan enerji mənbələri hesabına əldə etməyi planlaşdırır.

*VENESUELA*

### Elektrik enerjisinə qənaət rejimi tətbiq edilib

♦ **Venesuelada 20-27 marta təsadüf edən Müqəddəs həftənin bütün günlərində dövlət idarələri və təhsil ocaqları istirahətdə olublar. «RİA Novosti» xəbər agentliyinin məlumatına görə, bu qərarı ölkə prezidenti Nikolas Maduro elektrik enerjisinə qənaət məqsədi ilə verib. Maduronun fikrincə, bu tədbir nəticəsində ölkədə elektrik enerjisi sərfində 40% qənaət əldə edilməli idi...**

Xatırladaq ki, daha öncə Venesuela hökuməti elektrik enerjisinə qənaət məqsədilə dövlət qulluqçularını qısaldılmış iş rejiminə keçirmişdi. Ölkə perzidentinin qərarına əsasən, məmurlar və digər dövlət qulluqçuları indi əvvəlkindən iki saat yarım az, amma fasiləsiz olaraq saat 7.30-dan 13.00-a qədər çalışırlar.

*BRAZİLİYA*

### Yeni külək elektrik stansiyasının tikintisinə 400 milyon dollar

♦ **«Enel Green Power» şirkəti Braziliyanın şimal-şərqində, Baiya ştatında “Delfina” külək elektrik stansiyasının tikintisinə başlayıb.**

Ümumi qoyuluş gücü 180 MVt olan stansiyanın 2017-ci ilin birinci yarısında işə salınacağı gözlənilir. «Delfina» ildə 800 QVt enerji istehsal edəcəkdir ki, bu da 390 min braziliyalı ailəsinin tələbatını ödəyə biləcək, üstəlik, atmosferə 270 min tondan çox karbon qazı buraxılmasının qarşısı alınacaq.

«Enel Green Power» stansiyasının tikintisinə 400 milyon ABŞ dolları həcmində investisiya qoyur. Bu məbləğ şirkətin cari ildəki biznesplanında nəzərdə tutulub.

Hazırda «Enel Green Power»in Braziliyada ümumi qoyuluş gücü 418 MVt-yə bərabərdir. Onun 93 MVt-si su energetikasının, 313 MVt-si külək elektrik stansiyalarının, 12 MVt-si isə günəş generasiyasının planına düşür. Bundan əlavə, şirkət ümumi qoyuluş gücü 444 MVt olan bir sıra obyektlərin tikintisini də davam etdirir. Belə obyektlər sırasına tikilməkdə olan 254 MVt gücündə iri «İtuverava» günəş elektrik stansiyası da daxildir. «Enel Green Power» həm qoyuluş güclərinə, həm də layihələrin sayına görə Braziliya energetika bazarında lider mövqedə durur. Üstəlik bu yaxınlarda «Enel Green Power»ə fəaliyyətdə olan və 40 MVt qoyuluş gücünə malik su elektrik stansiyası üzərində hüquq verilib.

*DÜNYA*

### İordaniyada şist elektrik stansiyasının inşası üçün 1,6 milyard dollar

♦ **Çinin «Bank of China» (BoC), Industrial and Commercial Bank of China (ICBC) və qismən «Eesti Energia» konserninə məxsus olan «Attarat Power Company (APCO) müəssisəsi İordaniyada şist elektrik stansiyasının tikintisi və karxana yaradılmasının maliyyələşdirilməsi barədə müqavilələr bağlayıblar.**

Kreditə Çinin «Sinosure» idxal agentliyi zəmanət verir.

«Eesti Energia»nın məqsədi şist sahəsində nou-haunun köməyi ilə İordaniyada layihələri həyata keçirmək və maliyyə vəsaiti tapmaqdır. Bu günədək layihə banklar tərəfindən əsaslı maliyyə və texniki təhlildən uğurla çıxıb və biz çox şadıq ki, maliyyəçilər layihəni dəstəkləyirlər», - deyə «Eesti Energia»nın idarə heyətinin sədri Xando Sutter bildirib.

Sutterin sözlərinə görə, maliyyələşmənin başa çatdırılmasında bir sıra məqamlar, o cümlədən «Eesti Energia»nın əsas payının satılması barədə müqavilələr bağlanması məsələsi hələ də qalır. «İordaniya hökuməti ilə bağlanan sazişə uyğun olaraq «Eesti Energia» konserni elektrik stansiyası tikintisinin başa çatdırılmasından sonrakı ən azı beş il ərzində «ARSO»nun az payının sahibi olacaq», - Sutter əlavə edib.

İordaniyada elektrik stansiyasının və karxananın yaradılması 2,1 milyard dollara başa gələcək, layihə 1,623 milyard dollar həcmində kredit kapitalı hesabına maliyyələşdiriləcək. 554 MVt gücündə elektrik stansiyasının inşasına üç il yarım vaxt ayrılıb, yerli şist hesabına istehsal ediləcək ilk elektrik enerjisi 2019-cu ildə istehlakçılara çatdırılacaq. Elektrik stansiyasını Çinin nəhəng «Guanqdonq Power Corporation» müəssisəsi tikir, «Worley-Parsons» beynəlxalq mühəndislər bürosu layihələndirir, qaynar çat qazanlarını «Foster Wheeler» şirkəti tikir, «Siemens» şirkəti isə buxar turbinlərini və generatoru tədarük edir. Müqaviləyə əsasən İordaniyanın «National Power Electric Company» (NEPCO) dövlət elektrik energetikası firması 30 il ərzində istehsal edilən bütün enerjini alacaq.

***Materialı hazırladılar: Ə.Baxşəliyev, V.Məmmədov***

31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

# Mart hadisələri – xalqımızın qan yaddaşı

♦ **Son iki əsrdə Qafqazda erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalıb. Mərhələ-mərhələ gücləndirilən bu qeyri-insani siyasət nəticəsində soydaşlarımız min illər boyu yaşadıqları tarixi torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalıb.**





...1917-ci ildə Rusiyada yaranmış gərgin ictimai-siyasi vəziyyət Cənubi Qafqazda da proseslərin dramatikləşməsinə rəvac verdi. Erməni millətçiləri Oktyabr çevrilişindən sonra keçmiş Çar Rusiyasına daxil olan bütün regionlarda öz hakimiyyətini bərqərar etməyə çalışan bolşeviklər ilə ittifaq yaradaraq, Azərbaycan xalqının keşməkeşli tarixində daha bir faciəli səhifə açmağa nail oldular. Erməni terrorçularından təşkil olunmuş Bakı Kommunası bütövlükdə Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədilə 1918-ci ilin mart ayının 31-də bu mənfur planlarını bolşevik bayrağı altında reallaşdıraraq, Azərbaycanın ayrı-ayrı bölgələrində kütləvi qətllər həyata keçirdilər.

Qeyd edək ki, Bakıda qırğın törədilməsinə hələ 1918-ci ilin yanvarında cəhd edilmişdi. Müsəlman korpusunun komandiri general Talışinskinin həbsi şəhərin türk-müsəlman əhalisində ciddi qəzəb doğurmuşdu. Bundan istifadə edən ermənilər silahlı toqquşmaya cəhd göstərdilər. Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov və başqalarının səyi nəticəsində ermənilərin yanvar ayında qırğın törətmək planı baş tutmayıb. Lakin ermənilər bu məkrli niyyətlərini mart ayında həyata keçirə bildilər. Toqquşmanın başlanması üçün bəhanə isə Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 hərbçinin gəlişi oldu. Ermənilər şayiə yaydılar ki, bu zabitlər Muğandakı malakan kəndlərini dağıtmaq barədə göstəriş alıblar. Bunu bəhanə gətirən Şaumyan gəmidəki zabitlərin tərksilah olunması üçün göstəriş verdi. Buna etiraz edən yerli əhali isə küçələrə çıxıb zabitlərin tərksilah olunmasına etirazını bildirdi. Beləliklə, dinc əhaliyə qarşı amansız divan tutuldu...

Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, əhalini uşaqdan böyüyədək qətlə yetirmişdir. Həmin günlərdə təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəranda da kütləvi terror aktları törədilmiş, nəticədə minlərlə azərbaycanlı məhz milli mənsubiyyətinə görə öldürülmüş onlarla kənd yandırılmış, bir sıra milli-mədəni abidələr dağıdılaraq məhv edilmişdir.

Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı alman, 1925-ci ildə Bakı hadisələri barədə bunları yazıb: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dərmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər."

Azərbaycan Demokratik Respublikası hökumətinin Fövqəladə İstintaq Komissiyasının materiallarından bəzi çıxarışları bu hadisələrin dəhşətini gözümüz önündə canlandırır:

"1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilmişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur.

Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir.

1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilmişdir.

Erməni silahlı dəstələri Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 3257 kişi, 2276 qadın və 2196 uşağı öldürmüşdülər. Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür.

İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir..."

Mart hadisələri isə əslində bolşeviklərin daşnaqlarla birlikdə həyata keçirdikləri milli qırğın idi. Bu qırğının əsas təşkilatçısı olan S.Şaumyan özü də 1918-ci il aprelin 13-də RSFSR XKS-ə yazdığı məktubunda etiraf etmişdi: "Biz süvari dəstəmizə birinci silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik... Bizim altı min nəfərə yaxın silahlı qüvvələrimiz var idi... "Daşnaksütyunun" da üç-dörd min nəfərlik milli hissələri var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin inkişafı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildir. Biz bilərəkdən buna yol verdik".

Azərbaycan Demokratik Respublikası yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə, azərbaycanlıların ermənilər tərəfindən məhv edilməsi məsələsinə diqqət yetirdi. 1918-ci il iyul ayının 15-də Nazirlər Soveti mart faciəsinin, İrəvan quberniyasında baş vermiş ağır cinayətlərin tədqiqi və öyrənilməsi üzrə komissiya yaradılması haqqında qərar qəbul etdi. Mart faciəsi və digər erməni cinayətləri ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırmaq məqsədilə Xarici İşlər Nazirliyində xüsusi struktur da yaradıldı. Lakin ADR torpaqlarımızın işğal edilməsi və azərbaycanlıların soyqırımına məruz qalması məsələsinə hüquqi-siyasi qiymət verilməsi işini başa çatdırmadan süquta uğradı.

Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açıldı, təhrif edilən hadisələr əsil qiymətini aldı. Ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 mart Azərbaycanlıların Soyqırım günü elan edildi.

***...Tarix heç zaman unudulmur, həm də yazılır. Erməni vəhşilikləri Azərbaycan tarixinin qanla yazılmış səhifəsi olsa da, güclü Azərbaycan yerləşdiyi bölgədə söz və nüfuz sahibi olmaqla bütün problemlərin öhdəsindən hər zaman uğurla gəlmək iqtidarındadır.***

TƏHSİL

## Mayın 11-dən 13-dək eksternat imtahanları keçiriləcək

♦ **Əvvəlki illərdə ümumtəhsil məktəblərində oxuyub ümumi orta və tam orta təhsilini bitirə bilməyən şagirdlər üçün mayın 11-dən 13-dək eksternat qaydasında imtahanlar keçiriləcək.**

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) AZƏRTAC-a bildiriblər ki, qeydiyyat aprelin 1-dən 20-dək aparılacaq. Sənəd qəbulu BŞTİ-də, imtahanlar isə 45 nömrəli tam orta məktəbdə keçiriləcək.

Ərizələri BŞTİ tərəfindən qəbul edilən eksternlər mayın 4-dən 6-dək saat 10.00-dan 16.00-dək 45 nömrəli tam orta məktəbdən imtahana buraxılış vərəqələrini əldə edə biləcəklər.

İmtahana gələndə şəxsiyyət vəsiqəsinin əslinin gətirilməsi vacibdir.

Ətraflı məlumatı BŞTİ-nin rəsmi saytından əldə etmək mümkündür.

SOSİUM

## Metro keçidlərində apteklər açılacaq

♦ **Bakı metrosunun keçidlərində apteklər açılacaq. Bu barədə "Bakı Metropoliteni" QSC-nin ictimaiyyətlə əlaqələr və mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev AZƏRTAC-a deyib.**

Onun sözlərinə görə, Bakı metrosunun keçidlərində gül, kitab və dərman preparatlarının satışı ilə məşğul olan köşklər, avtomat ödəmə aparatların quraşdırılması barədə qərar verilib. Artıq gül və kitab mağazaları fəaliyyət göstərir. "Hazırda apteklərin açılması üçün hazırlıq işləri gedir. İlk belə aptek "Nəriman Nərimanov" metro stansiyasının keçidində açılacaq. Daha sonra digər stansiyalarda hazırlıq işlərinə başlanılacaq", - deyə N.Paşayev vurğulayıb.

PAYTAXTIMIZ

## Bakı dünyanın 50 ən möhtəşəm şəhəri sırasında

♦ **Britaniyada nəşr edilən, dünyanın ən böyük və möhtəşəm 50 şəhərindən bəhs edən "Skylines" kitabında Bakıya xüsusi yer ayrılıb.**



AZƏRTAC-ın məlumatına görə, nəşrin müəllifləri olan britaniyalı xanım Yolanda Zappaterra və Jan Fuscoe dünyada ən canlı, möhtəşəm, böyük, tanınmış, ən çox turist cəlb edən, memarlıq cəhətdən heyrətamiz 50 şəhəri seçərək, onlar haqqında məlumatları kitaba daxil ediblər.

Kitabın səhifələrində seçilmiş şəhərlərdən olan və oxucuda maraqlı təsəvvür silüeti yaradan ikonik binalar təsvir olunub. Bu təsvirlərin müəllifi məşhur britaniyalı illüstrator Jenny Seddondur.

"Aurum Press" nəşriyyatı tərəfindən Britaniyada nəşr edilən kitabda Bakı ilə yanaşı, London, Paris, İstanbul, Moskva, Nyu-York, Roma və digər şəhərlər yer alıb.

Kitabın Bakı haqqında olan hissəsi ümummilli lider Heydər Əliyevin "Azərbaycanda yüz illərdən bəri "Qara şəhər" adlanan şəhər ağaracaq, təmizlənəcək, burada gül-çiçək əkiləcək və o, Azərbaycanın gözəl bir guşəsinə çevriləcəkdir" sözləri ilə başlayır.

Daha sonra paytaxt Bakının VI əsrə qədərki tarixinə nəzər salınır. Qeyd edilir ki, şəhər Abşeron yarımadasında, Xəzər dənizinin sahilində yerləşir. Bu ərazi qədim zamanlardan palçıq vulkanları ilə məşhur olub. "Azərbaycan" sözünün mənasına da toxunan müəlliflər ölkəmizin "Odlar Yurdu" adlandırıldığını diqqətə çatdırıblar.

Kitabda müasir Bakının gözəlliklərindən, arxitekturasından, tarixi abidələrindən və dünyada məşhurlaşan müasir tikililərindən bəhs edilib. Burada İçərişəhər, Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi kimi UNESCO-nun Dünya Mədəni İrs siyahısına daxil edilən möhtəşəm və qədim tarixi abidələr olduğu vurğulanıb. Sovet dövrü memarlıq abidələrinə toxunan müəlliflər Heydər Əliyev Sarayı və Teleqüllə kompleksi haqqında məlumat veriblər.

Həmçinin qeyd olunub ki, müstəqilliyin bərpasından sonra Bakıda yenidənqurma, quruculuq işləri və müasir memarlıq abidələrinin tikintisi davam etdirilib. "Alov qüllələri" şəhərin simvoluna çevrilib. Beynəlxalq Muğam Mərkəzi Azərbaycan milli musiqi janrı olan muğamın dünyaya nümayiş etdirilməsi baxımından əhəmiyyətli rol oynayır. 2014-cü ildə London Dizayn Muzeyinin "İlin dizaynı" mükafatına layiq görülən Heydər Əliyev Mərkəzi müasir dövrün dünya memarlıq abidələri sırasında xüsusi yer tutur.

Son dövrlərdə Bakı şəhərinin "Eurovision" mahnı müsabiqəsi, Avropa Oyunları kimi beynəlxalq əhəmiyyətli yarışlara ev sahibliyi etdiyi və bu il də "Formula-1" üzrə Avropa Qran-pri yarışını keçirəcəyi diqqətə çatdırılıb.

Kitabda Azərbaycan paytaxtının gözəlləşməsində, burada aparılan yenidənqurma və abadlıq işlərində ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri xüsusi vurğulanıb.

REPORTAJ

# Novruzun yaraşığı

♦ **Xalq şairimiz Səməd Vurğunun təbirincə desək, «arzuya, istəyə qol-qanad verən" Bahar bu il də ölkəmizə nə xoş gəldi, ruhumuza dad verdi. Xalqımızın əsrlərdən süzülüb gələn ənənələrindən biri kimi Novruz bayramının – Yeni günün gəlişi sovet qadağası və əsarətindən qurtulmuş milli adətimiz tək müstəqillik illərində açıq-aydın, böyük coşqu ilə qeyd edilir.**



Builki Novruzun gəlişi də respublikamızın hər güşəsində təntənəli şəkildə bayram olundu. "Azərbaycan" İES qəsəbəsində yaşayan sakinlər də ülvi istək, saf arzularla bayram şənliklərinə qatılmışdılar. İyirmi mindən artıq sakini özündə birləşdirən, ikinci adı "Energetiklər" qəsəbəsi olan bu məkanın hər məhəlləsində tonqallar qalandı, Novruz atributlarının iştirakı ilə uşaqlar, gənclər, ahıl və qız-qadınlar birgə məhəllələrdə bayramlaşdılar, bir-birlərini təbrik edib xoş günlər arzuladılar.

Novruz şənliklərinin ən möhtəşəmi «Energetik» mədəniyyət evinin qarşısındakı geniş meydanda baş tutdu. Qəsəbənin Mənzil Kommunal Təsərrüfatı Kombinatı kollektivinin qüvvəsi ilə mədəniyyət evinin qarşısındakı fəvvarə təmir edilib saz hala gətirilmişdi. Ərazidə rəngləmə və ağartma işləri aparılmışdı. Səkilərin bardürləri yenilənmişdi. İdman meydançası qaydaya salınmış, oturacaqlar əsaslı təmirdən çıxarılmışdı. Ətrafa yeni gül kolları əkilmişdi.

Yüzlərlə qəsəbə sakininin iştirak etdiyi bayram şənliyinə Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və şəhərin məsul şəxsləri də qatılmışdılar. "Azərbaycan" İstilik Elektrik Stansiyasında çalışan əmək adamları, qəsəbədəki ümumtəhsil ocaqlarında və musiqi məktəbində oxuyan uşaqlar da tədbirin iştirakçıları idilər.

Novruz baramına həsr edilən musiqi sədaları qəsəbənin hər yerinə yayılırdı. El ağsaqqalı Dədə Qorqudun və Bahar qızının təbrikləri, arzu və dilekləri dinləyicilərdə xoş əhval-ruhiyyə yaradırdı. Keçəl və Kosanın məzəli, ürəkaçan hərəkətləri, qəsəbədəki 2 nömrəli musiqi məktəbi şagirdlərinin bayram töhfələri hamıya xoş ovqat bəxş edirdi. O gün bayram şənliyindən "Energetiklər" qəsəbəsinin hər mənzilinə sevinc, fərəh hissləri paylandı…

Novruzun bir yaraşığı da təbiətə yeni çalar qatmaq, yaşıllıqları çoxaltmaq istəyidir. Bu yöndə qəsəbədə xeyli iş görülmüşdü. «Azərbaycan İES» MMC-nin rəhbərliyi qəsəbədə yeni yaşıllıq zolağının salınması üçün tinglər gətizdirmişdi. Mənzil Kommunal Təsərrüfatı Kombinatının rəisi Şəhriyar Mustafayev deyir: "Qəsəbəmizin Cəmil Əliyev küçəsindəki geniş ərazidə yeni parkın yaradılmasına start vermişik. Buraya yazqabağı əkin kampaniyası zamanı mindən çox çinar, Eldar şamı, habelə gül kolları əkmişik. Bununla yanaşı, qəsəbədə – Naxçıvan küçəsindəki 29 və 31 nömrəli ünvanlarda yerləşən iki yataqxananın arxa hissəsində və ön hissədəki ehtiyac duyulan yerlərdə yeni ağaclar basdırmışıq, gül kolları əkmişik. Hələ yaz kampaniyasını davam etdirəcəyik".

Builki Baharın gəlişi "Energetiklər" qəsəbəsinin sakinləri üçün daha yaddaqalan oldu.

**Yusif ƏLƏKBƏROV**

AZƏRBAYCAN DİLİ

# Mühəndis və nitq mədəniyyəti

♦ **Artıq iki ildir ki, ölkəmizin texniki ali məktəblərində "Azərbaycan dili və nitq mədəniyyəti" fənni tədris edilir. Məqsəd gələcək mühəndislərə yazı və nitq mədəniyyəti vərdişləri aşılamaqdır. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Azərbaycan dili" kafedrasının professoru, filologiya üzrə elmlər doktoru Afaq AĞAYEVA bu barədə fikirlərini bildirərkən deyib:**

- Təsadüfi deyil ki, özəl və qeyri-özəl sektorlara dövlət qulluqçusu vəzifəsinə qəbul olunmaq istəyən şəxslər üçün ən mühüm və məsuliyyətli mərhələ - müsahibədir. Bəs gələcək mühəndislərin modeli olan tələbələrimizi nitq mədəniyyətinə yiyələndirmək məqsədilə biz müəllimlər tədris etdiyimiz fənnə hansı mövqedən yanaşmalıyıq? Daha obrazlı desək, "texniki təmayüllü nitq mədəniyyəti"ndə hansı cəhətlərə də diqqət yetirməliyik? Bəzən tələbələrdə belə bir sual yaranır: axı biz mühəndis, texniki işçilər olacağıq, nitq mədəniyyətinin bizə faydası nə ola bilər?

Bütün bu suallara cavab verməzdən əvvəl mühəndislik ixtisasının spesifik cəhətlərinə nəzər salaq. Hələ dahi Sokrat mühəndisliyi incəsənətin bir növü adlandırmışdı. Çünki mühəndislik, doğrudan da, yaradıcı sənətdir: salınan körpülərdən tutmuş, biotibbi cihazlaradək gündəlik həyatımızda istifadə olunan qurğuların layihəsi, cizgisi mühəndislərin yaradıcı əməyinin məhsuludur. Mühəndislik həkimlik, müəllimlik ixtisaslarına nisbətən insanlarla az ünsiyyətdə olan sahədir, yəni onların "tərəf-müqabili" maşınlar, cihazlar, aparatlar və sairdir. Ali məktəbləri bitirdikdən sonra gənclər elə situasiyalarla qarşılaşırlar ki, orda yalnız professional sahədə əldə etdikləri bilik və bacarıqlarla kifayətlənmək olmur. Möhkəm iradə, prinsipiallıq, təşkilatçılıq, məsələlərin öhdəsindən gəlmək üçün insanları öz ətrafında toplamaq, başqalarının, eləcə də özünün fəaliyyətinə qiymət vermək və s. kimi bacarıqlara yiyələnmək lazım olur ki, bunların da təməli məhz ali məktəbdə qoyulmalıdır. Digər tərəfdən, onların düşüncəsi, təfəkkür tərzi qrafik təsəvvürə əsaslanır. Buna görə də gələcək mühəndislərə, elmi-texniki sferada çalışacaq işçilərə nitq mədəniyyətindən kifayət qədər zəngin bilik baqajı verməklə yanaşı, onların dil fondunun, ümumi mədəniyyətinin, yaradıcı təfəkkürünün inkişafı üçün ixtisas fənni, bədii ədəbiyyat və həyatın müxtəlif sahələrinə aid oxu mətnlərindən istifadə etmək lazımdır. Azərbaycan dili və nitq mədəniyyəti fənni ilə texniki fənlər vahid təhsil mexanizminin ayrılmaz tərkib hissələridir.

Bu səbəbdən tələbələrimizə "Nitq mədəniyyəti fənninin digər elmlərlə əlaqəsi" mövzusunu izah edərkən texniki fənlərlə - riyaziyyat, fizika, kibernetika, eləcə də geoloqlar üçün maraqlı ola biləcək coğrafiya ilə əlaqə haqqında da məlumat vermək lazımdır. Burada Lui de Broyldan sitat gətirmək yerinə düşərdi: "Bəşəri kəşfləri də, əldə olunan bilgiləri də riyazi formullarla ifadə etmək mümkündür. Lakin bütün bunları inkişaf etdirmək, nəticələrindən faydalanmaq üçün ilk baxışdan çox adi təsir bağışlayan ədəbi dil lazımdır. Adi görünməsinə baxmayaraq, dilin dəqiqliyi formulların dəqiqliyindən qat-qat güclüdür".

Müasir dövrdə gənclərimiz hesablama texnikası, informatika, kibernetika elmlərinin prinsiplərinə uyğun təhsil alırlar. Humanitar elmlər zəncirinin bir həlqəsi olan nitq mədəniyyəti isə ADNSU məzunlarını təfəkkürün mühəndis üslubunun dar texniki çərçivəsindən azad olmaq, inkişaf etməkdə olan cəmiyyətimizin sosial sferadakı tələblərinə cavab verməyi bacarmaq ruhunda tərbiyə edir. Çalışmalıyıq ki, istər kollektivlə rəftarında, istərsə də işlədiyi idarədə menecerlə ünsiyyət quranda (çünki menecer, adətən, humanitar ixtisaslı olur) burda əxz etdiyi bilik və vərdişlər onların köməyinə gəlsin.



Məzunlarımız "karyera nərdivanı"nın "briqadir", "usta", "sahə rəisi", "sex müdiri", "direktor" adlanan pilləleri ilə irəlilədikcə artıq "insan+maşın" çərçivəsindən çıxaraq, "insan+insan" amili ilə qarşılaşırlar. Bu vəzifələr mühəndisdən insanlarla işləmək qabiliyyəti tələb edir. Onların idarə rəhbəri kimi elmi-texniki müşavirələr, işgüzar danışıqlar aparanda, tərif və tənqid edəndə, yaxud tərif və tənqid ediləndə nitqin etik normalarına riayət etməklə fikrini qarşısındakına çatdıra, həmçinin nitqini qrammatik cəhətdən düzgün qura bilmək üçün yenə də nitq mədəniyyətinin incəliklərindən xəbərdar olması lazımdır. "Orfoqrafiya", "Orfoepiya", "Vurğu" bəhsində texniki terminlərin orfoqrafiyası, texniki terminlərin orfoepiyası, texniki terminlərdə vurğu haqqında da məlumat verilməlidir. Çalışmalar və tapşırıqlar fərdiliyin cilalanmasına xidmət etməklə yanaşı, həm də formal məntiqi analizdən, texniki təfəkkür tərzindən yaxşı mənada uzaqlaşmağa, yaradıcı təfəkkürün inkişafına yönəldilməlidir. Bəzən təklif edirlər ki, mühəndis kadrları hazırlayan ali məktəblərdə "tədrisin möcüzəsi" sayılan dialoqları EHM-lərlə aparmaq lazımdır. Amma fikrimizcə, dialoq canlı ünsiyyət vasitəsi kimi daha çox səmərə verər. Fənlə bağlı "Diskussiya mədəniyyəti" mövzusunu, "Təşkil olunmuş nitq" bölməsinin "Məruzə", "Çıxış" mövzularını tədris edərkən elmi-texniki aspektdə keçirilən tələbə elmi konfranslarında, diskussiyalarda, debatlarda uğurlu iştirakı təmin etmək məqsədilə elmi-texniki nitqin öyrədilməsinə diqqət artırılmalıdır.

Yeri gəlmişkən qeyd edək ki, hörmətli Prezidentimiz İlham Əliyev bu ilin noyabr ayında AMEA-da olarkən dövlət başçısının qarşısında nitq söyləyən təhsil naziri Mikayıl Cabbarov öz çıxışında qeyd etmişdir ki, ali məktəblərdə elmi-tədqiqat işlərinin aparılması gücləndirilməlidir. Gələcəyin mühəndislərinə öz fikirlərinin, ideyalarının, təklif etdikləri yeniliklərin üzərində dayanmaq, etik normalar çərçivəsində israrlı olmaq, qarşıdakını inandırmaq vərdişləri də aşılanmalıdır. Bu məqsədlə texniki ali məktəblərdə elmi üslubun elmi-texniki qolu elmi və elmi-tədris nöqteyi - nəzərindən xüsusi olaraq işıqlandırılmalıdır. Elmi üslub haqqında məlumat verərkən elmi-texniki üslubun özəlliklərinə, elmi-texniki üslubun leksik-qrammatik xüsusiyyətlərinə də toxunulmalıdır. Nitqi inkişaf etdirmək məqsədilə verilən, klassik və müasir ədəbiyyatdan götürülən söz inciləri ilə yanaşı, "bədii üslubun elmi-texniki qolu" olan elmi-fantastik əsərlər də gələcək mühəndislərin nitqinin inkişaf etdirilməsinə, zəkasının, dünyagörüşünün zənginləşməsinə xidmət etməlidir. Çünki düzgün seçilmiş elmi-fantastik əsərlərdəki terminlər elmi-texniki dilə (məsələn, kibernetika, robototexnika) çox yaxındır.

"Rəsmi sənədlərin yazılış qaydaları"nı tədris edərkən ənənəvi üsulla yanaşı, işə qəbul olunanda tələb edilən SV-lərin, əmək müqavilələrinin, əmək təcrübəsi müddətində lazım ola biləcək elmi-texniki sənədlərin - hüquqi şəxslərlə bağlanan işgüzar müqavilələrin, sazişlərin düzgün tərtibi prinsipləri, əmək təhlükəsizliyi jurnallarının doldurulmasına aid nümunələr, əmək təcrübəsində lazım olan digər sənədlərin, aktların (məsələn, "defektasiya aktı"nın) hazırlanması, mühəndisin anketinin doldurulması haqqında yeri gəldikcə məlumatlar verilməlidir. Nitq mədəniyyətinin texniki təmayüllü olması heç də bu fənnin texniki elmlərlə bərabərləşməsi demək deyil, əksinə, texniki təhsilin humanitarlaşdırılmasıdır.

Bu konsepsiya universitetimizin korifeylərindən olan mərhum akademik Azad Mirzəcanzadənin "Təhsilin humanitarlaşdırılması haqqında etüdlər" əsərində də öz əksini tapmışdır. Bir sözlə, təhsil prosesində konkret elmlərlə humanitar elmlərin elə bir vəhdətini yaratmaq lazımdır ki, texniki elmlərdə fərdi xüsusiyyətlərin inkişafını buxovlayan "zəncirlər" humanitar elmlər vasitəsilə açılsın. Gələcək məzunlarımızın aydın, səlis, yığcam, düzgün nitqə malik olmaları, linqvistika sahəsində verdiyimiz bilikləri istehsalatda müvəffəqiyyətlə tətbiq edə bilmələri üçün əlimizdən gələni etməliyik.

Düşüncələrimi dahi Sokratın müəllimin vəzifəsi haqqında dediyi sözlərlə yekunlaşdırmaq istəyirəm: "Müəllimin vəzifəsi tələbənin başına bilikləri yerləşdirməklə bitmir. Çalışmaq lazımdır ki, onun başında da yeni ideyaların formalaşmasına zəmin yaransın".

Nəzərə çatdırmaq istərdim ki, mən hazırda "Texniki ali məktəblərdə Azərbaycan dili və nitq mədəniyyəti" adlı dərslik üzərində işləyirəm. Texniki sahə mütəxəssislərinin bu məsələ ilə bağlı məsləhət və təklifləri olarsa, əvvəlcədən öz minnətdarlığımı bildirirəm.

## "Expressbank"ın Əhmədli filialı fəaliyyətə başlayıb

♦ **"Expressbank"ın "Əhmədli" metro stansiyasının yaxınlığında yeni Əhmədli filialı fəaliyyətə başlayıb. Yeni filial "Əhmədli" metro stansiyasının çıxışında, M.Hadi küçəsi, 31S ünvanında yerləşir.**

"Əhmədli" metro stansiyasının yaxınlığında yerləşən filial müştərilərə ən yüksək səviyyədə xidmət göstərmək üçün bütün zəruri şəraitə və imkanlara malikdir", - deyə "Expressbank"ın biznesin inkişafı departamentinin direktoru Mehriban Ocaqquliyeva AZƏRTAC-a bildirib.

Ətraflı məlumatı 132 məlumat mərkəzindən, *www.expressbank.az* saytından və ya bankın rəsmi facebook səhifəsindən *www.facebook.com/Expressbank* əldə etmək olar.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC-nin əməkdaşı

**Etibar Bağırovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi «Azərbaycan İES» MMC-nin baş mühəndisinin müavini

**Mərdan Baxışovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC-nin rəhbərliyi və kollektivi institutun əməkdaşı

**Etibar Bağırovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«Azərbaycan İES» MMC-nin rəhbərliyi və kollektivi stansiyanın baş mühəndisinin müavini

**Mərdan Baxışovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN.**

**İTMİŞDİR**

**Sadıqov Yusif Hüsü oğlunun** adına verilmiş 90200002103313 nömrəli və A seriyalı 274283 nömrəli **torpaq sənədi** itdiyi üçün etibarsız sayılır.

*Təsisçi:* **"Azərenerji" ASC**
*Naşir:* **"Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC**

***Baş redaktor:***
**Elşən ƏLİYEV**



***Redaksiyanın ünvanı:*** AZ 1012. Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 94.
***Telefonlar:*** (012) 430-01-20; ***daxili:*** baş redaktor - (075) 216, şöbələr - (075) 214; (075) 215. ***E-mail:*** **azerbaycan-ishiqlari@box.az**

"Azərbaycan işıqları" qəzetinin kompüterlərində yığılıb səhifələnir, **"CBS polygraphic production"** mətbəəsində çap olunur. Tiraj: 1000

Çapa imzalanıb:
30 mart 2016-cı il, saat 18.30.
***Məsul növbətçi:*** **S.QARAYEV**